QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 099 (5819) **1 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri mövcuddur"

*Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərə gələn Polşa Prezidenti Andjey Duda ilə görüşüb*



Səh 2

5

"Sığortanın ölkə üzrə tətbiqindən sonra həkimlər daha yaxşı əməkhaqqı alacaq"



7

Yerevan-"Stepanakert" münaqişəsi kəskin fazada



8

UEFA finalında Azərbaycan qələbəsi



# "Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri mövcuddur"

*Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərə gələn Polşa Prezidenti Andjey Duda ilə görüşüb*

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Andjey Dudanın mayın 31-də rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev Polşa Prezidenti Andjey Dudanı qarşılayıb. Polşanın və Azərbaycanın dövlət himnləri səsləndirilib. Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Andjey Dudaya, Polşa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.***



Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Polşa Prezidenti Andjey Dudanın Azərbaycana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verəcəyi bildirildi.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış ediblər.



**Azərbaycan Prezidenti İlham Əliyev:**

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar. Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, səfər uğurlu keçəcək və səfər nəticəsində əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Mən sizin gözəl ölkənizə öz səfərimi məmnuniyyətlə xatırlayıram. Biz Sizinlə çox geniş fikir mübadiləsi apardıq və gələcək planlar haqqında danışdıq. Bu gün isə yüksək səviyyəli siyasi dialoq davam etdirilir. Bu gün keçirdiyimiz təkbətək görüşdə bir daha ikitərəfli əlaqələrimizin gündəliyinə nəzər saldıq və gələcək planlar haqqında danışdıq. Bizim əlaqələrimiz çoxşaxəlidir, həm siyasi sahədə, iqtisadi sahədə, digər sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza çox güclü təkan verəcək. Bir daha Sizi səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

x x x

**Polşa Prezidenti Andjey Duda:**

-Zati-aliləri, çox hörmətli cənab Prezident.

Məni buraya dəvət etdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Mənə göstərilən səmimi qonaqpərvərliyə görə çox minnətdaram. Düzgün qeyd etdiniz, bu, mənim Azərbaycana ilk səfərimdir. Mən Bakını ilk dəfədir ki, görürəm. Ölkə və olduqca gözəl şəhər mənə böyük təəssürat bağışladı.

Mən, həmçinin fürsətdən istifadə edib Sizi təbrik etmək istəyirəm. Çünki Sizin atdığınız hər bir addım uğur gətirir. Əminəm ki, bu, nəinki mənim təəssüratımdır, digərlərinin də təəssüratı eynidir.

Dünən biz gözəl yerlərdə olduq, gözəl abidələri gördük, həmçinin küçələrinizi seyr etdik. Bunların əsasında məhz Sizin işiniz, fəaliyyətiniz dayanır. Bu da əslində, bizdə çox yaxşı təəssürat yaradır. Sizi təbrik edirəm. Mən buraya səfər etməkdən çox şadam. Cənab Prezident, mən açıq şəkildə söyləmək istəyirəm ki, uzun illər ərzində ölkələrimiz müxtəlif sahələrdə səmərəli şəkildə əməkdaşlıq ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Respublikasının bitki mühafizəsi və toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında fitosanitariya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Polşa Respublikasının bitkilərin sağlamlığı və toxumçuluq üzrə təftiş müfəttişi Andjey Xodkovski imzaladılar.

**Ardı Səh. 3**

# "Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri mövcuddur"

*Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərə gələn Polşa Prezidenti Andjey Duda ilə görüşüb*

**Əvvəli-Səh-2**

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı naziri Kriştof Ardanovski imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev və Polşa Respublikasının Daxili Təhlükəsizlik Agentliyinin sədr müavini Kriştof Vatslavek imzaladılar. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mətbuata bəyanatlarla çıxış ediblər.

**Prezident İlham Əliyevin bəyanatı:**

"Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, bu səfər Polşa-Azərbaycan əlaqələrinin inkişafına çox güclü təkan verəcəkdir.

Mən Sizin ölkənizə öz rəsmi səfərimi xatırlayıram. İki il bundan əvvəl biz Sizinlə Polşada görüşmüşdük və o görüş zamanı ikitərəfli əlaqələrimizin gələcək inkişafı haqqında fikir mübadiləsi aparmışdıq. Hesab edirəm ki, iki il ərzində biz böyük yol keçmişik və müxtəlif sahələr üzrə uğurlu əməkdaşlıq formatı yaradılıb. Xüsusilə Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, çox önəmli sənəddir və bizim əlaqələrimizin mahiyyətini əks etdirir. Biz doğrudan da strateji tərəfdaşıq.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Yüksək səviyyəli qarşılıqlı səfərlər bunu əyani şəkildə təsdiqləyir. Bu gün müzakirə olunan mövzularla bağlı bizdə fikir ayrılığı yoxdur. Biz istəyirik ki, ikitərəfli əlaqələrimiz bütün sahələrdə inkişaf etsin.

Hesab edirəm ki, biz iqtisadi sahədə daha da fəal işləməliyik. Çünki ticarət dövriyyəsi hələ ki, o qədər də böyük deyil, halbuki potensial var. Bu gün biz bu barədə də danışdıq və müəyyən etdik ki, növbəti mərhələdə biznes qurumlarının müntəzəm olaraq bir araya gəlməsi nəticəsində ticarət dövriyyəsi artmalıdır. Bu gün keçiriləcək biznes forum əlbəttə ki, buna nail olmaq üçün çox önəmli bir vasitədir. Bilirəm ki, forumun işinə həm Polşadan, həm Azərbaycandan çox böyük maraq var. Hesab edirəm ki, Polşa və Azərbaycan biznes dairələri bir-biri ilə sıx əlaqə quraraq, həm özləri, həm də ölkələrimiz üçün fayda gətirə bilərlər.

Hesab edirəm ki, sərmayə qoyuluşu baxımından bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Biz qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı fəal işləməliyik və ölkəmizdə gözəl sərmayə iqlimi var. Ümid edirəm ki, Polşa şirkətləri bu imkanlara diqqətlə baxacaqlar. Eyni zamanda, Azərbaycan şirkətlərinə də tövsiyə edirəm Polşadakı imkanlara baxsınlar ki, bizim aramızda olan iqtisadi və ticarət əlaqələri daha da genişlənsin. Keçən il Polşada Azərbaycanın ticarət evi açılmışdır. Bu, kiçik də olsa, önəmli addımdır. Hesab edirəm ki, bundan sonra bu istiqamətdə daha böyük addımlar atılacaq.

Bu gün, eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkələrimiz üçün böyük önəm daşıyır. Azərbaycan bu sahədə öz işlərini görür. Mövcud nəqliyyat və logistika imkanları yeni bir vəziyyət yaradır. Yəni, Azərbaycan nəqliyyat mərkəzlərinin birinə çevrilir və əlbəttə, ərazimizdən keçən yüklərin həcmi də əminəm ki, artacaq.



Energetika sahəsində əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparılmışdır. Bu sahədə də böyük potensial, qarşılıqlı maraq var. Müvafiq qurumlar, bizim şirkətlərimiz bu məsələ ilə bağlı indi işləyirlər və danışıqları davam etdirirlər.

Biz bu gün, eyni zamanda, digər sahələrdəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Kənd təsərrüfatı, turizm və digər sahələrdə yaxşı imkanlar var. Həm əldə edilmiş nailiyyətlər, həm də yeni imkanlar mövcuddur və biz bu imkanlardan istifadə etməliyik. Bir sözlə, səfərin uğurlu keçməsi artıq reallıqdır. Əminəm ki, səfərin ikinci hissəsində də əldə ediləcək razılaşmalar bizim ümumi ikitərəfli əməkdaşlığımıza çox böyük təkan verəcək, bu əməkdaşlıq inkişaf edəcək və biz bunu istəyirik. Səfərin uğurlu keçməsi artıq onu göstərir ki, hər iki tərəfdən çox güclü siyasi iradə var."

**Polşa Prezidenti Andjey Dudanın bəyanatı:**

- Zati aliləri, cənab Prezident. Xanımlar və cənablar.

Əvvəlcə mən, cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. Siz iki il öncə ölkəmizə səfər etdiniz. Həmin vaxtdan etibarən bizim ikitərəfli münasibətlərimiz daha da inkişaf etdi və bu, əslində Sizinlə mənim aramda olan şəxsi münasibətlərin də başlanğıcı oldu. Cənab Prezident, məni Azərbaycana, Bakıya dəvət etdiyinizə görə çox minnətdaram. Mən bu dəvəti məmnunluqla qəbul etdim və bu səfər artıq baş tutur. Cənab Prezident, Sizinlə görüşmək mənim üçün şərəf oldu. On il öncə - hətta həmin vaxtdan da uzun müddətdə Polşanın keçmiş Prezidenti Lex Kaçinski Sizinlə görüşdü. O vaxt o, Sizi özünün yaxın dostu adlandırdı. Həmin vaxtdan etibarən ikitərəfli münasibətlərimiz inanılmaz dərəcədə gücləndi, Polşa ilə Azərbaycan arasındakı münasibətlər daha güclü şəkildə inkişaf etdi. Cənab Prezident, mən Sizin bu münasibətinizi yüksək dəyərləndirirəm.

Bu gün isə mənim səfərim həyata keçirilir. Biz bu gün əməkdaşlığımızın bütün sahələrini nəzərdən keçirdik və Prezident Lex Kaçinskinin faciəvi ölümündən sonra itirilmiş vaxtı aradan qaldıra bildik. Cənab Prezident, biz daha çox səfərlər, təmaslar mübadilə etdik. Bu gün biz razılaşmalara imza atdıq. Biz artıq əməkdaşlığımızın yeni erasına başlayırıq. Bununla biz əldə etdiyimiz razılaşmalara, kənd təsərrüfatı sahəsindəki əməkdaşlığa artıq böyük ümidlər bəsləyə bilərik. Hesab edirəm ki, bununla da Polşa fermerlərinin ixrac imkanları daha da genişlənəcək. Kənd təsərrüfatı sahəsində avadanlıq, həmçinin kimya sənayesi məhsullarının, gübrələrin ixrac edilməsi imkanları genişlənəcək. Bilirəm ki, Azərbaycanda bu sahədə inkişaf gedir. Əslində, qeyd etməliyəm ki, Azərbaycan bizim mühüm ticari tərəfdaşımızdır. Məlumdur ki, 2010-cu ildən sonra bütün dünyanı maliyyə böhranı bürüdü. Buna baxmayaraq, hazırda biz ticari münasibətlərimizin səviyyəsini yenidən artırırıq.

Cənab Prezident, bu, mənim cavab səfərimdir. Hesab edirəm, cənab Prezident, Sizin səfəriniz və mənim səfərim ölkələrimizə iqtisadi münasibətlərin genişləndirilməsi üçün yeni üfüqlər açacaqdır. Biznes forumu təşkil etdiyinizə görə təşəkkürümü bildirirəm, cənab Prezident. Biz bu gün həmin tədbirdə iştirak edəcəyik. Həmin tədbir çərçivəsində azərbaycanlı sahibkarlar polşalı sahibkarlarla görüşəcəklər. Bu da yeni təmasların qurulmasına imkan yaradacaq və nəticədə daha çox müqavilələr imzalanacaq. Bu isə bizim qarşılıqlı iqtisadi mübadilələrimizi artıracaq.

Hörmətli cənab Prezident, hesab edirəm ki, biz yeni imkanlar yaradırıq. Hazırda mən səbirsizliklə gözləyirəm ki, hər iki ölkənin biznes icması görüşsün. Hesab edirəm ki, Sizin ölkənizdəki Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olmalıdır. Sizin ölkəniz artıq bir qovşağa çevrilməkdədir və istərdik ki, Polşa şirkətləri buraya gəlməklə, fəaliyyət göstərməklə bizim mübadilələrimizə böyük töhfə versinlər. Biz Bakının yaxınlığında yerləşən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından istifadə etmək istəyirik. Ümidvarıq ki, Polşa şirkətləri bu imkanlardan yararlanacaq.

Bu gün, cənab Prezident, Siz ərazi bütövlüyü məsələsinə toxundunuz və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyinizi bildirdiniz. Bilirik ki, bu məsələ uzun illərdir həll olunmamış qalır. Hazırda biz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüyük. Biz bəyan etmək istəyirik ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüququn normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər. Biz bu problemin sülh yolu ilə həll olunmasında Sizə yardım edəcəyik. İstəyirik, arzumuzu bildirək ki, bu, belə də olsun. Biz istərdik ki, Minsk qrupu çərçivəsində aparılan danışıqlar bundan sonra da davam etsin və müsbət nəticələr gətirsin. Beləliklə, bu uzunmüddətli münaqişə öz həllini tapa bilər.

Həmçinin biz istərdik ki, Avropa İttifaqı ilə Azərbaycan arasında çərçivə sazişinə dair aparılan danışıqlar da tezliklə başa çatdırılsın. Bu, həm Azərbaycan vətəndaşları, həm də Avropa İttifaqı vətəndaşları üçün imkanlar yaradacaq. İstərdik ki, Azərbaycan, həmçinin Dünya Ticarət Təşkilatına üzvlük baxımından da nəticələr əldə etsin. Əslində bu da bizim ikitərəfli iqtisadi münasibətlərimizə müsbət təsir göstərəcək.

Sonuncu vacib bir məqamı, cənab Prezident, bildirmək istəyirəm ki, biz polşalılar tarixən Azərbaycanda olmuşuq. Uzun illər ərzində, - mən bunu xüsusi qeyd etmək istəyirəm, - demək olar ki, yüz ildən də çox əvvəl Polşa memarları Azərbaycanda yaşayıblar, yaradıblar. Bir çox polyaklar, Polşanın ziyalı dairələrinin təmsilçiləri də burada olublar. Burada mən Polşa memarlarını xüsusi qeyd etmək istəyirəm. Bakının özünəməxsus gözəlliyinin yaradılmasında, abidələrinin qurulmasında Polşa memarları mühüm rol oynayıblar. Polşa memarları tərəfindən yaradılan həmin abidələrə bu gün xüsusi qayğı göstərilir. Onlar yeni çalarda öz gözəlliyi ilə bizi cəlb edir.

Cənab Prezident, buna görə mən Sizə təşəkkürümü bildirirəm ki, bu gün biz, həmçinin Bakının mərkəzində Polşa memarlarının adını daşıyan küçəni açacağıq. Küçənin adı da çox böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, obrazlı desək, Polşa memarlarının xatirəsi bir daha əbədiləşdiriləcək."

Sonra Azərbaycan və Polşa prezidentləri ölkələrimizin mədəni və tarixi irsini əks etdirən poçt markalarını qarşılıqlı olaraq təqdim ediblər.

# Bakıda Azərbaycan-Polşa biznes forumu keçirilib

***Mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumda iştirak ediblər. Dövlət başçıları biznes forumda nitq söyləyiblər.***







Prezident İlham Əliyev:

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, biznes forumun iştirakçıları. Cənab Prezident, Sizi bir daha salamlayıram. Biz Sizinlə şəhərdən bir yerdəyik. Bu gün Sizin Azərbaycana rəsmi səfəriniz çərçivəsində geniş fikir mübadiləsi aparılmışdır, müxtəlif mövzular ətrafında danışılmışdır və artıq demək olar ki, səfər çox uğurludur. Əminəm ki, bu səfər Polşa-Azərbaycan əlaqələrinin gələcək inkişafına çox böyük təkan verəcəkdir.

Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Mən Polşaya öz səfərimi böyük məmnuniyyətlə xatırlayıram. Eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində də görüşürük, danışırıq və bu görüşlər ikitərəfli əlaqələrimizə çox böyük fayda verir. Bu gün isə biznes forum çərçivəsində Polşa-Azərbaycan biznes dairələrinin nümayəndələri bir araya gəliblər və bu da təbiidir. Çünki bizim yüksək səviyyədə siyasi əlaqələr imkan verir ki, biznes dairələri də bir-biri ilə sıx təmasda olsunlar.

Bilirəm ki, forum çərçivəsində bir neçə saziş imzalanacaq. Bu, onu göstərir ki, forumun real nəticələri olacaqdır. Amma gələcəkdə əlbəttə ki, bu sazişlərin sayı daha da çox ola bilər. Çünki qarşılıqlı maraq kifayət qədər böyükdür. Sadəcə olaraq, biznes dairələri birbirini yaxından tanımalıdırlar və biznes imkanlarını araşdırmalıdırlar. Hesab edirəm ki, Prezident Dudanın səfəri bu baxımdan çox əhəmiyyətlidir. Çünki bəzi hallarda məlumat qıtlığı imkan vermir ki, biznes dairələri bir-biri ilə sıx əlaqə qura bilsinlər.

Mən hesab edirəm ki, biznes dairələri üçün əməkdaşlıq çox faydalı ola bilər. Azərbaycanda ümumiyyətlə biznes mühiti müsbətdir və son illər ərzində bu istiqamətdə böyük irəliləyiş var. Dünya Bankı da bunu qeyd edir. Dünya Bankının "Doing Business 2019" hesabatında biznes mühitinin səviyyəsinə görə Azərbaycan 25-ci yerdədir və 10 ən islahatçı ölkə arasındadır. Ona görə sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulmuşdur. Xarici sərmayələr lazımi səviyyədə qorunur və hər bir ölkə üçün bu, önəmlidir. Çünki biznes mühitinin yaxşılaşdırılması nəticəsində həm iş adamları özlərini daha rahat hiss edirlər, həm də dövlətlər daha böyük fayda götürür.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar imkan verir ki, biz öz maliyyə imkanlarımızı genişləndirək. Xarici dövlət borcu aşağı səviyyədədir, biz çalışırıq ki, daha da aşağı səviyyəyə endirək. Hazırda bu, ümumi daxili məhsulun 19 faizini təşkil edir. Biz beynəlxalq maliyyə qurumları ilə fəal əməkdaşlıq edirik və onlar Azərbaycanda gedən islahatlara müsbət qiymət verirlər.

Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri biznes şəraitini daha da yaxşılaşdırır. Çünki yollar, kommunikasiyalar olan yerlərdə əlbəttə ki, biznes dairələri də özlərini daha rahat hiss edirlər. Son illərdə Azərbaycanda infrastruktur layihələrinin icrasına çox böyük diqqət yetirilmişdir. Hesab edirəm bu sahədə əldə edilmiş nəticələr deməyə əsas verir ki, bu layihələr öz bəhrəsini verir, həm insanlara rahatlıq gətirir, eyni zamanda, iş adamlarının fəaliyyətini yüngülləşdirir. Yol tikintisi, qazlaşdırma, elektrik enerjisi ilə bağlı aparılan bütün bu işlər, o cümlədən biznes üçün gözəl şərait yaradır.

Azərbaycanda nəqliyyat sektorunun inkişafı son illərdə prioritet məsələ kimi qalır və bu gün biz bu barədə fikir mübadiləsi apardıq. Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturu həm ölkə daxilində, həm də regional çərçivədə əhəmiyyətlidir. Son illər ərzində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir. Biz müasir nəqliyyat və logistika infrastrukturu yaratmışıq. Əlbəttə ki, bunun biznes dairələri üçün çox böyük əhəmiyyəti, çox böyük faydası var. Çünki nəqliyyat infrastrukturu olmadan biznesin inkişafından söhbət gedə bilməz.

Azərbaycan ənənəvi olaraq enerji sektorunun inkişafına böyük diqqət göstərir. Ancaq bizim əsas məqsədimiz qeyri-enerji sektorunun inkişafıdır. Bir sözlə, iqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritetdir və son illərdə bu istiqamətdə addımlar atılıb. Hesab edirəm ki, Polşa-Azərbaycan biznes dairələrinin birgə fəaliyyəti nəticəsində bu sahəyə də diqqət göstəriləcək.

Biz bu gün kənd təsərrüfatı sahəsində artıq nəticə hasil etmişik və saziş imzalanmışdır. Polşanın bu sahədəki təcrübəsi bizim üçün çox əhəmiyyətlidir. Bizim ölkəmizin inkişafı, o cümlədən iş yerlərinin yaradılması üçün kənd təsərrüfatının çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, biz bu sahədə sürətli əməkdaşlıq aparmaq üçün yaxşı imkanlara malikik.

Son illərdə Azərbaycanda turizmin inkişafı geniş vüsət alıb. Polşa vətəndaşları sadələşdirilmiş viza rejimi əsasında ölkəmizə gələ bilirlər. Hesab edirəm ki, qarşılıqlı təqdimatlar keçirilməlidir. Yəni, insanlarımız bir-birilərini daha yaxından tanımalıdır ki, turizm daha da sürətlə inkişaf etsin və qarşılıqlı səfərlər həyata keçirilsin.

Beləliklə, yüksək səviyyəli siyasi əlaqələr imkan verir ki, biznes sahəsində də yaxşı nəticələr olsun. Hazırda aramızdakı ticarət dövriyyəsi bizim potensialımızı əks etdirmir. Ticarət dövriyyəsini artırmaq üçün, ilk növbədə, biznes dairələri daha fəal olmalıdırlar, biz isə öz tərəfimizdən onlara hər zaman dəstək veririk. Prezident cənab Andjey Duda ilə bugünkü biznes forumdakı iştirakımız bu dəstəyin növbəti təzahürüdür."

**Polşa Prezidenti Andjey Duda:**

"Hörmətli cənab Prezident. Hörmətli nazirlər. Hörmətli Polşa və Azərbaycan biznes nümayəndələri. Hörmətli sahibkarlar.

Cənab Prezident, ilk növbədə, Sizə dərin təşəkkürümü bildirirəm. Biz Azərbaycanın bu sahədəki qurumlarına təşəkkürümüzü bildiririk ki, onlar bu biznes forumu bizim üçün təşkil etdilər, tikinti sahəsində və digər sahələrdə çalışan Azərbaycan və Polşa şirkətlərini bir araya gətirdilər.

Son illər ərzində, ümumiyyətlə, bizim münasibətlərimiz çox intensivləşmişdir. Azərbaycan Cənubi Qafqaz regionunun lider ölkəsidir və Polşa şirkətləri üçün çox cəlbedici bir məkandır. Polşa tərəfi Azərbaycan ilə Avropa İttifaqı arasında bu sahədəki tərəfdaşlığın dərinləşməsində maraqlıdır. Biz Avropa İttifaqının fəal üzvüyük. Qeyd etmək istəyirik ki, biz məhz Azərbaycan ilə Avropa İttifaqı arasında əhatəli əməkdaşlıq sazişinin imzalanmasında olduqca maraqlıyıq.

Bu gün Polşa ilə Azərbaycan arasında bir sıra razılaşmalar imzalandı. Bu da əslində bizim münasibətlərimizin yeni bir səhifəsini göstərir. Biz Polşa tərəfi olaraq uzun müddətdir Avropa İttifaqının üzvüyük və bu mövqedən çıxış edərək istərdik ki, Avropa İttifaqı öz əməkdaşlıq qapılarını daha geniş açsın və yalnız müttəfiqlər haqqında düşünməsin, həmçinin digər ölkələrlə də əməkdaşlıq imkanlarını genişləndirsin. Biz çox şadıq ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlıq edir. Bununla biz, həmçinin ikitərəfli siyasi və iqtisadi əməkdaşlığımızı da inkişaf etdirmiş oluruq.

Bu gün iqtisadi təşəbbüslərə gəldikdə, ölkələrimiz arasında olan gündəlik göstərir ki, xalqlarımızın rifahına xidmət edən bir çox layihələr var. Bu sırada nəqliyyat sahəsini, daşımaları qeyd etmək istəyirəm. Həmçinin müxtəlif istiqamətlərdə nəqliyyat dəhlizləri yaradılmışdır. Son illər ərzində Polşa xüsusən də dəniz limanlarına və dəmir yol xətlərinə malik olan dövlətlərlə öz əlaqələrini inkişaf etdirib. Bu baxımdan bizim ölkəmizdə logistika infrastrukturunun yaradılmasına da diqqət yetirilir. İstərdik ki, bu gün biz, həmçinin beynəlxalq hava limanları vasitəsilə bu sahədəki mübadilələri daha da artıraq. Biz ölkəmizdə bunu yaradırıq. Ölkəmizin coğrafi mövqeyindən istifadə edərək, biz yaxşı anlayırıq ki, bununla bağlı bir sıra üstünlüklər var və bu üstünlüklərdən istifadə olunmalıdır. Xüsusən də Şimal ilə Cənub, Qərb ilə Şərq, Avropa ilə Asiya arasında multimodal daşımalar əməliyyatları artmalıdır. Qeyd etmək istəyirəm ki, Polşa, həmçinin Trans-Xəzər daşımalar dəhlizlərində də iştirak etməkdə maraqlıdır. Biz, həmçinin istərdik ki, Avropanın cənub-qərb hissəsində öz əlaqələrimizi daha da genişləndirək.

Azərbaycan bu gün geniş imkanlara malik olan ölkədir və bilirik ki, böyük layihələr həyata keçirməkdədir. Azərbaycan, həmçinin Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmuşdur. Bunun sayəsində Çinə və Hindistana ticarət marşrutları daha da qısalacaqdır. Bu baxımdan istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha geniş şəkildə fəaliyyət göstərsinlər. İstərdik ki, Polşada da Azərbaycan şirkətləri daha geniş şəkildə çalışsınlar və məhsulların ixrac-idxalı ilə məşğul olsunlar.

Biznes forum işini təqdimatlar və iş adamlarının ikitərəfli görüşləri ilə davam etdirdi.

# Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi olub

*Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda mərasimdə iştirak ediblər*






Mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, paytaxtın Polşa memarları küçəsində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iştirak ediblər.

Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub. Xatirə lövhələrinin müəllifi Azərbaycanın Əməkdar memarı Elbay Qasımzadədir.

Qeyd edək ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıya əcnəbi sərmayədarlarla yanaşı, tanınmış mühəndislər, inşaat üzrə mütəxəssislər də ayaq açmaqda idi. Şəhərin ərazisi genişlənir, yeni binalar inşa edilir, rayonlar meydana gəlirdi. Bakının memarlıq simasının zənginləşməsində yerli memarlarla bərabər, əcnəbi mütəxəssislər də fəal iştirak edirdilər. Şərq üslubunu heç vaxt itirməyən şəhər, eyni zamanda, bir Avropa şəhərinə çevrilirdi. Bu məsələdə, ümumiyyətlə, o dövrkü Bakının arxitekturasında polşalı memarlar xüsusi rol oynayırdılar. Həmin memarlar Azərbaycan paytaxtının bir sıra möhtəşəm tarixi binalarının müəllifi olublar. Məsələn, Murtuza Muxtarovun sarayı, İsmailiyyə, Bakı Şəhər İcra Hakimiyyətinin binası, Ağabala Quliyevin mülkü və bir çox tarixi binalar polşalı memarların layihələri əsasında inşa olunub.

# "Sığortanın ölkə üzrə tətbiqindən sonra həkimlər daha yaxşı əməkhaqqı alacaq"



***Trend Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovdan icbari tibbi sığorta ilə bağlı müsahibə götürmüşdür. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***

**- Əli müəllim, artıq 2020-ci ildən Azərbaycanın bütün rayon və şəhərlərində icbari tibbi sığortanın tətbiqi nəzərdə tutulur. Hazırda bu istiqamətdə proses hansı mərhələdədir?**

- İcbari tibbi sığorta ilə bağlı Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında həyata keçirilən pilot layihələrdən əldə olunan nəticələr ümudvericidir. Bir tərəfdən, insanların icbari tibbi sığortanın tətbiqi təcrübəsindən məmnunluq səviyyəsi yüksəkdir. Bu, bizim inamımızı artıran birinci məqamdır. İkinci tərəfdən, icbari tibbi sığorta ilə məşğul olan mütəxəssislərin özlərinin təcrübəsi formalaşıb. Artıq onlar da bu təcrübə əsasında bütün ölkə miqyasında icbari tibbi sığortanın tətbiq olunmasını daha inamla həyata keçirə biləcəklər.

2020-ci ilin yanvar ayından etibarən bütün ölkə miqyasında icbari tibbi sığorta tətbiq olunacaq. Bu barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı var, müvafiq təşkilati tədbirlər görülür. Güman edirəm ki, bu, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ən böyük sosial layihələrdən biri olacaq. Burada çoxlu sayda insanlarımız müalicə üçün xərclərdən azad olacaqlar. Təqaüdçülər, uşaqlar, əmək qabiliyyətini itirənlər və başqaları bu qəbildəndir. Bu kateqoriyalı insanların müalicəsi ilə əlaqədar bütün sığorta xərcləri dövlət tərəfindən ödəniləcək. Digər kateqoriya, yəni işləyən insanların isə əməkhaqqından və onları işə götürən müəssisə tərəfindən müəyyən faiz ödəniləcək və sığorta hesabına müalicə alacaqlar.

İcbari tibbi sığortanın tətbiqi əhalinin sosial vəziyyətinin yaxşılaşmasına kömək edəcək. Bu, məsələnin birinci tərəfidir. İkinci tərəfi isə insanlara daha keyfiyyətli tibbi xidmətin göstərilməsi təmin olunacaq. Ölkə üzrə həkimlər daha yaxşı əməkhaqqı ala biləcək və insanların həkimlərə qarşı tələbkarlığı da artmış olacaq. Çünki indiki halda belə təəssürat yaranır ki, onlar sanki heç bir əvəzi olmadan müalicə olunurlar. Amma sığorta sistemində hər bir həkim müalicə etdiyi insana görə əməkhaqqı alacaq. Daha çox insana xidmət göstərən həkim yüksək əməkhaqqı alacaq, bu və ya digər səbəblərdən az xəstə qəbul edənlər isə aşağı əməkhaqqı almaq məcburiyyətində qalacaqlar. Həkimlər də daha keyfiyyətli xidmət göstərməyə çalışacaqlar ki, insanlar məhz onların qəbuluna gəlsinlər. Beləliklə, səhiyyənin keyfiyyəti yüksələcək.

**- İşsiz kimi qeydiyyata alınan insanların sığorta haqları kim tərəfindən ödəniləcək?**

- İşləyən və ya sahibkarlıqla məşğul olan insanlar özlərinin sığorta haqlarını təbii ki, ödəyəcəklər. İşsiz kimi qeydə alınan insanların sığorta haqları isə dövlət tərəfindən ödəniləcək. Onlar müvafiq yardım alacaq. Yəni tibbi xidmətdən kənarda qalan insan olmayacaq. Bu, bütün dünyada tətbiq olunan formada Azərbaycanda da reallaşacaq.

**- Əməkhaqqından nə qədər faiz tutulacağı bəllidir?**

- Bu məsələ dəqiqləşdirilir. Nazirlər Kabinetinin bununla bağlı müvafiq qərarı olacaq. Elə də yüksək rəqəm deyil və vətəndaşlar, eyni zamanda işə götürənlər üçün böyük yükə çevrilməyəcək. Bu gün Azərbaycanda dünyanın digər ölkələrində olduğu qədər sığorta haqqı tutulmasından söhbət gedə bilməz. Təbii ki gələcəkdə Azərbaycan vətəndaşlarının əməkhaqları yuxarı olduqca, tutulan sığorta haqları da arta bilər. Biz çalışmalıyıq ki, Azərbaycanda tibbi xidmət səviyyəsi yüksək olsun.

# Milli Məclisin plenar iclasında 2018-ci il dövlət büdcəsinin icrası müzakirə olunub

*Mayın 31-də Milli Məclisin yaz sessiyasında son plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, parlamentin sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunacaq.*




Qanun layihəsini iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə təqdim edib. O deyib ki, 2018-ci il Azərbaycan dövlətinin, xalqının tarixində ən yaddaqalan illərdən biri olub. Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Bu gün Azərbaycan dünyada dinamik inkişaf edən, özünün beynəlxalq aləmdə nüfuzunu artıran bir dövlət kimi tanınır. Azərbaycan dünyanı heyran edən irimiqyaslı transmilli layihələrin təşəbbüsçüsü və iştirakçısıdır.

Bildirilib ki, 2018-ci ildə ümumi daxili məhsul (ÜDM) 1,4 faiz, əhalinin adambaşına düşən gəlirləri 8,2 faiz artıb, inflyasiya təkrəqəmli səviyyəyə düşüb, manatın məzənnəsi sabit qalıb, enerji daşıyıcılarının qiymətlərindəki müsbət dinamika xarici ticarət balansının müsbət nəticələnməsinə səbəb olub. Ötən il xarici ticarət dövriyyəsi 30,9 faiz artaraq 31,8 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft əmtəə ixracının 9,8 faiz artmasını xüsusilə qeyd etmək lazımdır. Bütövlükdə ticarət balansında yaranmış müsbət saldo gələcəkdə böyük işlərin həyata keçirilməsinə şərait yaradacaq. Valyuta ehtiyatlarımız 2018-ci ildə 44,5 milyard ABŞ dolları olub. Ötən il dövlət büdcəsinin gəlirləri üzrə proqnoz tapşırıqları artıqlaması ilə yerinə yetirilib.

Qeyd olunub ki, 2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 508 milyon manat olub. Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artımla icra olunması xüsusilə qeyd edilməlidir. 2018-ci il vergi daxilolmaları üzrə 7 milyard 380 milyon manat proqnoza qarşı faktiki daxilolmalar 7 milyard 415 milyon manat təşkil edib, daxilolmalar 2017-ci illə müqayisədə 6,3 faiz artıb. Daxilolmaların artımı artıq ödəmələrin azalması şəraitində müşahidə olunub.

Qanun layihəsinə rəyi Hesablama Palatasının sədri Vüqar Gülməmmədov təqdim edib. Sədr bildirib ki, Azərbaycanın ictimai-siyasi həyatında əlamətdar hadisələrlə zəngin bir il kimi yadda qalan 2018-ci il ölkə iqtisadiyyatı üçün də uğurlu olub. Ötən ilin dövlət büdcəsi yüksək artım tempi və icra səviyyəsi ilə xarakterizə olunur.

"Neftin qiymətinin artması 2018-ci ildə makroiqtisadi sabitliyin bərpası istiqamətində müsbət meyillər üçün münbit şərait formalaşdırıb. İqtisadiyyatda faktiki yaradılmış ÜDM-in nominal həcmi 79,8 milyard manat olub, real ifadədə artım 1,4 faiz təşkil edib, proqnozlara əsasən, ÜDM-in real artımının tamamilə qeyri-neft ÜDM-i əsasında reallaşdırılacağı gözlənilib və bu gözləntilər əsasən özünü doğruldub. Belə ki, iqtisadi artımın təxminən 81 faizini qeyri-neft sektoru təmin edib.

2018-ci ilin dövlət büdcəsi milli valyutanın sabit kursu şəraitində icra olunub. Əsas ticarət tərəfdaşları olan ölkələrdə 2018-ci ildə devalvasiyaların qeydə alınması müqabilində manatın sabit dinamika nümayiş etdirməsi nominal effektiv məzənnənin möhkəmlənməsi ilə nəticələnib", - deyə Vüqar Gülməmmədov qeyd edib.

Bildirilib ki, transmissiya kanalları vasitəsilə ölkə iqtisadiyyatına daxil olmuş neqativ şokların məzənnə və digər faktorlar ətrafında yaratdığı mənfi fəsadların aradan qaldırılması məqsədilə reallaşdırılmış monetar və fiskal tədbirlər öz nəticəsini verib, 2 il ardıcıl olaraq müşahidə olunmuş ikirəqəmli inflyasiya təkrəqəmli inflyasiya ilə əvəzlənib. Münbit makroiqtisadi meyillər dövlət büdcəsinin müvəffəqiyyətli icrasına da real şərait formalaşdırıb. Belə ki, dövlət büdcəsinin gəlir və xərclərinin icrası son 7 ildə ən yüksək artım tempini nümayiş etdirib, eyni zamanda, icra səviyyəsi də son illərin meylini davam etdirməklə yüksək olub.

Hesabat ilində dövlət büdcəsinin gəlirləri qanunla müəyyən edilmiş 20 mənbə üzrə daxilolmalar hesabına formalaşıb, bu mənbələrdən 13-ü üzrə proqnoz artıqlaması ilə, 7-si üzrə isə kəsirlə icra olunub. Gəlirlərin artımının əsas mənbəyini Azərbaycan Respublikasının Dövlət Neft Fondunun transferti təşkil etsə də, transfert məbləği nəzərə alınmadan da dövlət büdcəsinin gəlirləri 2017-ci ilə nisbətən 10,9 faiz çox olub. Bəzi tədiyə növlərinin icra səviyyəsi arasında nəzərəçarpacaq fərqlər olsa da, vergi gəlirləri əvvəlki illə müqayisədə 11,7 faiz çox olmaqla artıqlaması ilə yerinə yetirilib.

Qeyd olunub ki, dövlət büdcəsinin xərcləri 22,7 milyard manat məbləğində və ya müəyyən edilmiş proqnozla müqayisədə 98,4 faiz səviyyəsində icra edilib, 2017-ci illə müqayisədə artım 29,2 faiz təşkil etməklə ÜDM-ə nisbəti 28,5 faiz olub. 2018-ci ildə şərti istehsal xərcləri və ya iqtisadiyyatın real sektoruna yönələn xərclər əvvəlki illə müqayisədə 78,0 faiz çox olub, bu xərclərin dövlət büdcəsinin ümumi xərclərində xüsusi çəkisi də artıb. Sosial siyasətin həyata keçirilməsi, müdafiə-idarəetmə, borca xidmət xərcləri və digər fəaliyyəti əhatə edən şərti qeyri-istehsal xərcləri də əvvəlki illə müqayisədə 12,9 faiz artımla icra edilib.

Vüqar Gülməmmədov deyib ki, büdcə xərclərinin strukturunda əsaslı qoyuluşlar üzrə xərclərin əhəmiyyətli artımı müşahidə edilib, əsaslı xərclərin 56,6 faizi və ya 5,1 milyard manatı (dövlət büdcəsi xərclərinin 22,3 faizi) dövlət əsaslı vəsait qoyuluşuna yönəldilib. Dövlət əsaslı vəsait qoyuluşlarının Dövlət İnvestisiya Proqramında da payı yüksək olmaqla proqram üzrə cəmi vəsaitin 65,8 faizini təşkil edib. Ümumilikdə, əlavə dəyərin yaradılması sahəsində mühüm maliyyə mənbəyi olan Dövlət İnvestisiya Proqramının icrasını təmin etmək üçün istifadə edilmiş 7,7 milyard manat məbləğində vəsaitin 91,7 faizi qeyri-neft sektorunun inkişafına yönəldilib.

2018-ci ilin sonunda büdcə kəsirinin məbləği təsdiq edilmiş məbləğlə müqayisədə 4,3 dəfə az olub. Büdcə kəsirinin proqnozlaşdırılmış məbləğlə müqayisədə az olması son hesabat ilində dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsində dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı və Avropa İttifaqının qrantından daxilolmalardan istifadə edilməməsi ilə nəticələnib. Hesabat ilində kəsirin maliyyələşmə mənbəyi olaraq özəlləşdirmədən nəzərdə tutulmuş məbləğlə müqayisədə 1,2 faiz çox vəsait daxil olub. Bununla yanaşı, bu mənbə üzrə hesablanmış, lakin dövlət büdcəsinə ödənilməmiş vəsaitlər üzrə qalıq məbləği əvvəlki illə müqayisədə 16,1 faiz azalsa da, investisiya müsabiqəsi yolu ilə özəlləşdirməyə yönəldilən müəssisələrin (səhmlərin, hissələrin) satışından borc qalıqları 19,8 dəfə artıb. Vahid xəzinə hesabının qalığı ilin əvvəlində büdcə gəlirlərinin 7,3 faizə bərabər olub.

"Dövlət borcuna xidmətlə bağlı 2018-ci ildə icra edilmiş vəsait cəmi xərclərin 9,8 faizinə bərabər olub. Bu isə dövlət borcunun idarə edilməsi ilə bağlı qəbul olunmuş strategiya ilə müəyyən edilmiş 15,0 faizlik həddən aşağıdır. Bununla yanaşı, büdcə xərclərinin 2620,1 milyon ABŞ dollarını və ya ümumi xərcin 19,6 faiz hissəsini (valyuta kursu Dövlət Statistika Komitəsinin məlumatına görə 1,70 manat olmaqla) xarici valyutada aparılan əməliyyatların təşkil etməsi, həmin vəsaitin də müəyyən hissəsinin dövlət borcuna xidmətlə bağlı xərclərdən ibarət olması ümumən büdcənin fiskal yükü olaraq qəbul edilə bilər", - deyə Hesablama Palatasının sədri qeyd edib.

Sonra deputatlar Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası barədə fikirlərini bildiriblər. Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib. Daha sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Bununla da Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.



# Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın iclası olub

*Mayın 31-də Nazirlər Kabinetində görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın ilk iclası olub.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb. Baş nazirin müavini bildirib ki, görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkə tarixində mühüm rol oynayan görkəmli ziyalılarımız, Vətənimizin müstəqilliyi uğrunda şəhid olanlar, şücaət göstərib Milli Qəhrəman adı qazananlar və onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Xalq, vətən, dövlət qarşısında xidmətləri olan həmin şəxslərin bir çoxlarının adları müxtəlif qurumlara, təhsil, mədəniyyət ocaqlarına, küçələrə və s. verilir. Sözügedən məsələ ilə bağlı müvafiq icra orqanlarından Nazirlər Kabinetinə yeni təkliflər daxil olur. Bu təkliflər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün Komissiyaya təqdim edilir.

Daha sonra Komissiyanın iclasında təkliflərlə bağlı müzakirələr aparılıb. Komissiya üzvlərinin rəyləri nəzərə alınaraq yekun qərar qəbul edilməsi üçün zəruri tövsiyələr verilib. Xatırladaq ki, Komissiya 2019-cu il aprelin 1-i Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılıb.

# Azad Rəhimov: Bakıda Avropa Liqasının final oyunu ən yüksək səviyyədə keçdi

İki gün əvvəl Bakıda Avropa Liqasının final oyunu ən yüksək səviyyədə keçdi. Final oyunu azarkeşlər və qonaqlar üçün böyük bir futbol bayramına çevrildi. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov UEFA Avropa Liqasının Bakıda keçirilmiş final matçına münasibət bildirərkən deyib. Nazir qeyd edib ki, final oyununu izləməyə gələn bütün azarkeşlər ölkələrinə razı qayıdıblar. İnanırıq ki, onlar Bakıya turist kimi yenidən gələcəklər. Xatırladaq ki, mayın 29-da Avropa Liqasının final matçında "Çelsi" "Arsenal"ı 4:1 hesabı ilə məğlub edərək qələbə qazanıb.



# Yerevan-"Stepanakert" münaqişəsi kəskin fazada

## "Armenianreport": "Baş verənlər ictimaiyyətə təhlükə xəbərdarlığı verir"

***Yerevanla "Stepanakert" (dırnaqlar bizimdir - R.R.) arasındakı qarşıdurma iki hissəli erməni ictimaiyyətinin münasibətlərinə təsirsiz ötüşə bilməzdi". Bu barədə "armenianreport"un Ermənistanla "DQR" arasındakı kəskin böhranla bağlı təhlilində yazılıb. Qeyd olunur ki, son proseslər "milli azadlıq hərəkatı" dövründən bu yana ən kritik vəziyyəti göstərməkdədir. Maraqlıdır ki, həm Ermənistanın siyasi hakimiyyəti, həm də "DQR"in "rəhbərliyi" baş verənləri gizlətməyə də cəhd etmirlər. "Bunu necə gizlətmək olar ki, kəskin qarşıdurma nişanələri açıq-aşkar iki "paytaxt" arasındakı düşmənçiliyi sübut edir" deyə erməni saytı yazır. SİTAT: "Son üç gündə "iki erməni dövlətində" baş verənlər ictimaiyyətə təhlükə xəbərdarlığı verir. Belə ki, Paşinyan hökuməti ilə "Artsax" arasındakı münaqişə kəskin fazaya keçid alıb.***

### Ermənistanın 28 may respublika günündə qondarma "DQR" rəhbərliyi, ilk dəfə olaraq, bayram tədbirlərində iştirak etmədi

Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasındakı düşmənçilik münasibətinin yaranması daha bir məqamda özünü göstərib. Belə ki, Ermənistanın 28 may respublika günündə qondarma "DQR" rəhbərliyi, ilk dəfə olaraq, bayram tədbirlərində iştirak etmədi. "Ermənistana, ümumiyyətlə, "Artsax"dan heç kim gəlmədi" deyə yazılan məqalədə erməni baş nazirinin mətbuat katibi Vladimir Karapetyanın fikirləri də maraq doğurur. Onun sözlərinə görə, əgər Paşinyan mayın 9-da "Artsax"da keçirilən tədbirlərə qatılaraq, həmin günü həm də özünün "bayramı" kimi qəbul edirsə, bu zaman Yerevan nəyə görə "Artsax"a ayrıca dəvətnamə göndərməlidir? "Yaxud əgər "Artsax"da Ermənistanın respublika gününü həm də öz bayramları kimi qəbul edirlərsə, onda onlar da dəvətsiz şəkildə Yerevana gələ bilərdilər" deyə Paşinyanın sözçüsü bildirib.

Beləliklə, faktiki olaraq, Paşinyanın çevrəsində publik şəkildə etiraf etdilər ki, onlar da "Artsax"ın mövcud "rəhbərliyini" Yerevandakı bayram tədbirlərində görmək istəməyiblər.

### Nikolun oğlu Aşot Qarabağdan Yerevana köçürülüb - o, "Artsax"a göndərilərkən, səs-küylü piar kampaniyası aparan hakimiyyət indi ağzına su alaraq oturub

Təhlildə digər məqama toxunulur. Belə ki, ictimai rəydə ən çox müzakirə olunan məsələlərdən biri də baş nazirin oğlu Aşot Paşinyanın "Artsax"dakı hərbi qulluğundan ani şəkildə Yerevana geri çağırılmasıdır. SİTAT: "Rəsmi şəkildə bəyan edildi ki, Aşot Paşinyan ştatlı bölüklərlə qısamüddətli hərbi təlimlərə qatılıb. O, hazırda Yerevan yaxınlığındakı hərbi hissədə - Sovetaşandadır. Müdafiə nazirinin sosial şəbəkələrdəki müzakirələrə əsəbi reaksiyası ictimai rəyi rəsmi versiyanın həqiqətdən daha uzaq olduğuna inandırdı. Axı, bizim də xatırladığımız kimi, Paşinyan oğlunu "Artsax"a hərbi xidmətə göndərərkən, bu məsələ nəhəng səs-küylə, fanfar səsləri altında ictimailəşdirildi və müvafiq piar kampaniyası aparıldı. Lakin onu təcili şəkildə Yerevana - isti yerə, müharibədən və "Artsax" rəhbərliyindən uzaq bir yerə köçürəndə, hakimiyyətin təbliğat maşını sanki ağzına su alıb oturdu".



Beləliklə, Yerevanla "Stepanakert" arasındakı münasibətlərin nə qədər kəskin həddə çatması elə Nikol Paşinyanın oğlunun Qarabağdan Ermənistana köçürülməsindən də açıq-aydın hiss olunmaqdadır. Yəni görünən budur ki, Nikol oğlu Aşotun başına ən ağır iş gələcəyindən ehtiyat edib. Daha dəqiq desək, qarabağlı ermənilərin onun "gül balasını", necə deyərlər, gözümçıxdıya salmalarından, hətta öldürülməsi təhlükəsindən ehtiyat edib. Bu, artıq reallıqdır və aksiomadır. Yoxsa nə var idi ki, oğlu elə Qarabağdaca hərbi xidmətini davam etdirərdi. Amma hadisələr göstərir ki, Ermənistanla "DQR" arasındakı vəziyyət, həqiqətən də, kifayət qədər gərgindir.

### Paşinyanın ətrafı baş nazirin oğlunun "Arsax"da qalmasının təhlükəli olduğunu hesab ediblər

Bu baxımdan, erməni agentliyindəki məqalədə daha sonra yazılır ki, Yerevandakı qısamüddətli təlim kursları adi vaxtlarda olsaydı, bu, çətin ki, ictimai rəyin diqqətini özünə cəlb edə bilərdi: "Lakin övlad Paşinyanın yerdəyişməsi kəskin böhran məqamında baş tutdu. Çox yəqin ki, Paşinyanın ətrafı baş nazirin oğlunun "Arsax"da qalmasının təhlükəli olduğunu hesab ediblər. O, nəinki "Artsax" hakimiyyətinin girovuna çevrilə, həmçinin, Ermənistanın baş nazirinə qarşı şantaj aləti kimi də istifadə oluna bilərdi. Əgər biz yanılırıqsa, onda nəyə görə hazırkı vaxta qədər Aşot Paşinyanı "Arsax"da yerləşən əvvəlki xidmət yerinə geri qaytarmırlar?"

### Paşinyan "Artsax"a inqilab eksportunu edə biləcəkmi?

Müəllif, üçüncü məqama da toxunaraq yazır ki, "Stepanakert"in Robert Koçaryanı kor-koranə dəstəkləməsi Paşinyanı, sözün həqiqi mənasında, özündən çıxardı. "Hər kəsə aydın oldu ki, Nikol Paşinyan Robert Koçaryana orientasiya olunmuş "Artsax"dakı mövcud rəhbərliyə hakimiyyətini qorumasına imkan verməyəcək" deyə qeyd edilən təhlildə, Paşinyanın ərazilərin verilməsi (işğal altındakı ərazilərimiz-R.R.) təhlükəsi yarandığı halda inqilabın "Artsax"a eksport olunacağı ilə bağlı fikirlərini də xatırladıb. SİTAT: "DQR"in birdən-birə iki "prezidentinin" (hazırkı və keçmiş-R.R.) Yerevana gələrək, məhkəmə qarşısında Robert Koçaryana görə zamin durmaları məsələsini Paşinyan özünə qarşı açıq demarş kimi qiymətləndirdi. Yerevanda anladılar ki, "Stepanakert" arxasında konfrontasiya olan qırmızı həddi keçib. Təbii ki, Yerevanla "Stepanakert" arasında baş verənlər iki erməni cəmiyyətinə təsirsiz ötüşə bilməzdi. Əgər Ermənistanda Koçaryana nifrət edənlər, bütünlüklə, Paşnyanı dəstəkləyirlərsə, o cümlədən, "Arsax"dakı hakimiyyətin dəyişilməsini istəyirlərsə, "ikinci erməni dövləti"nin əhalisi, əksinə, kültəvi şəkildə Koçaryanın və "Stepanakertin" tərəfini tuturlar".

Qeyd olunur ki, artıq sosial şəbəkələrdə neqativlik kütlə tərəflərin bir-birinə münasibətlərində özünü göstərir. Erməni müəllif vəziyyətin nəzarətdən çıxmasına işarə edərək, bu qarşıdurmanın ermənilərə heç də yaxşı nə isə vəd etmədiyini yazıb.

**Rövşən RƏSULOV**

# Paşinyan 25 nazir müavinini işdən qovdu

Ermənistanın Baş naziri Nikol Pashinyanın qərarlarına əsasən, 25 nazir müavini vəzifələrindən azad edilib. SİAErmənistana məxsus Iragir.am saytına istinadən xəbər verir ki, 9 nazirliyin nazir müavinləri Paşinyanın qərarı ilə işdən qovulublar.

Məlumata görə erməni baş nazirin qərarı ilə, Ermənistan Respublikasının ərazi idarəetmə və inkişaf nazirinin müavinləri Karen İsaxanyan, Liliya Şuşanyan, birinci müavini Vache Tərtəryan, İqtisadi İnkişaf və İnvestisiya Nazirliyinin nazir müavinləri Mane Adamyan, Avaq Avanesyan, Albert Babayan, Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nazir müavinləri Armen Arzumanyan, Baqrat Badalyan, Qeqam Vardanyan, təhsil nazirinin müavinləri Lusine Arakelyan, Qrisha Tamrazyan və Arevik Anapiosyan, kənd təsərrüfatı nazirinin müavinləri Qarnik Petrosyan, Artak Kamalyan, Tiqran Qabrielyan, Enerji İnfrastrukturu və Təbii Resurslar Nazirliyinin nazir müavinləri Akop Vardanyan və Vardan Qevorgyan, mədəniyyət nazirinin müavinləri Tiqran Qalstyan və Nazeni Qaribyan, idman və gənclər nazirinin müavinləri Qabriel Kazaryan, Kristine Asatryan, Sargis Avaqyan və Qevork Loreçian, diaspora nazirinin müavinləri David Sarkisyan və Babken Ter-Qrigoryan vəzifələrindən uzaqlaşdırılıblar.

**İnam Hacıyev**

# "Amnesty International"da insan haqları necə pozulur?

"Amnesty International" təşkilatının idarə heyətinin 7 üzvündən 5-i təşkilatı tərk edəcək. Trend-in məlumatına görə, həmin şəxslər oktyabr ayınadək vəzifələrini tərk etməlidir. Qeyd olunur ki, bir müddət əvvəl "Amnesty International"da əmək şəraiti barədə məruzə hazırlanması qərara alınıb.

Buna səbəb təşkilatın iki əməkdaşının intihar etməsi, bir çox işçilərin isə rəhbərliklə münasibətlərdən şikayəti olub. Ötən il təşkilatın Paris ofisində işləyən Qaetan Muto intihar edib və yazdığı məktubda bunun səbəbi kimi stres və həddən artıq yorğun olmasını göstərib.

Bir neçə həftə sonra isə Cenevrə ofisinin əməkdaşı Rozalind MakQreqor intihar edib. Onun yaxınları qadının işlə əlaqədar psixoloji gərginliyə məruz qaldığını bildirib. Hesabatda o da qeyd olunub ki, işçilər menecerlərin dəfələrlə onları alçaltdığını bildirib. Təşkilat daxilində irqi və cinsi zəmində ayrı-seçkiliyin də olduğu deyilib.

# UEFA finalında Azərbaycan qələbəsi

## *Azərbaycan dövləti və rəsmi Bakı sözün həm məcazi, həm də əsl mənasında, finallara ev sahibliyi etmək statusu qazanmışdır*

***UEFA kubokunun final oyununun Bakıda keçirilməsinə nail olmaq üçün gərəkli addımların atılması və yüksək nəticəyə görə, rəsmi Bakını və Azərbaycan xalqını cari taktiki qələbə münasibətilə təbrik etmək olar. Hələ nəzərə alsaq ki, ölkəmiz və dövlətimizin Qərbdəki və qonşuluqdakı əleyhdarları qara piar kampaniyasını başlatmaqla, əslində, nəticə etibarilə, heç qətiyyən müqayisə olunmayacaq nisbətdə Azərbaycan dövlətinin və vətəndaşının üstün olduğunu aşkar etdi. Yəni bu qara piar, əslində, başlanmasa, idmanı siyasiləşdirmək cəhdi olmasaydı, bəlkə də bir idman bayramı yaşanardı, ötərdi...***





Lakin qısa zamanda, real nəticəsi ortaya çıxacaq bir iş, hələ üstəlik, dəyişilməsi və geri dönüşü mümkün olmayan bir proses üzərində qara piar qurmaq, yəqin ki, rəqiblərin ən zəif və ən axırıncı intiqam vasitəsidir, deyə düşünə bilərik.

### İdmanı siyasiləşdirməklə başlanan qara piara, ən azından cavab verilməsi və ya izahat xarakterli çıxışlar Bakı finalının ikiqat təbliğatına çevrildi

Çox uğursuz, həm də arqumentsiz "faktlara" istinad etməyə çalışanlar, görünür, reallıq hissini itirmişlər. Hətta təəccüb doğuran haldır ki, bu qara piarçılar, necə olur ki, bu qədər kobud və bəsit səhvə yol verirlər? Finala təxminən 20 gün qalmış müxtəlif dairələrin Bakıda keçiriləcək qarşılaşmanı bütün detalları və tərəfləri ilə əleyhinə və ya lehinə müzakirəyə çıxartmaqla, əslində isə, polemika açmaqla, idmanı siyasiləşdirməklə başlanan qara piara, ən azından, cavab verilməsi və ya izahat xarakterli çıxışlar Bakı finalının ikiqat təbliğatına çevrildi. Onu da, nəzərə alaq ki, bu kampaniya cəmisi 20 günə hesablanmalıdır, çünki qısa zamanda, bütün reallıq, gerçəklik və fakt ortaya çıxandan sonra qara piarçılar arqumentsiz qalır və bu isə, əks tərəfin - Bakının ikiqat mütləq qələbəsinə çevrilir. Həm təbliğata kömək etmiş olurlar, həm də öz üzərində qələbə möhürünün vurulmasına rəqibə yardım edilir.

### Deyəsən, indiki dünyada ağıllı texnoloq problemi var!

Dünyanın və Avropanın ən böyük auditoriyaya malik aparıcı kütləvi informasiya vasitələrini özündə əks etdirən 204 ölkənin (!) KİV-lərindən ibarət, hesablamalara görə, təxminən 2 milyarda yaxın tamaşaçı-azarkeş auditoriyasının diqqəti Bakı gecələrində səmanı bəzəyən atəşfəşanlığın qığılcımları ilə işıqlanan Azərbaycanın paytaxtına yönəlmişdir. Bu intriqanı qızışdıran, hətta Bakı finalına diqqəti artıran digər bir faktor isə, 2 ingilis idman klubunun kubok uğrunda döyüşü idi. Yeri gəlmişkən, 2 ingilis klubunda cəmisi 1 ingilis - "Arsenal"ın futbolçusu Ensli Meytlend - Nayiz futbol oynayırdı, o da uduzdu... Bu fakt da düşünmək üçün diqqət çəkə bilər. İngilis yumoru ilə belə bir çoxmənalı deyim çıxır ortaya- görünür, İngiltərədə daha ingilis qalmayıb (bəs hardadılar?).

İndi isə, qısaca qiymət verməyə çalışaq. Əvvəla, UEFA kubokunun Bakı finalı Azərbaycan dövlətinin ardıcıl sürətdə həyata keçirdiyi çox vacib faktor olan daxili sabitlik şəraitində sosial inkişaf proqramına uyğun şəkildə, xüsusən, indiki qarışıq və narahat dünyada həm Şərqdə, həm Qərbdə- Avropada, hər an, hər küçədə və hər tində vətəndaşın və turistin - insanın həyatını təhdid edən terror təhlükəsinin mövcud olduğu bir zamanda, idman siyasətinin ardıcıl həyata keçirilməsi və ən müasir standartlara cavab verən idman turizm infrastrukturunun qurulmasının təsdiqidir. Əlbəttə, bundan əvvəlki və qurulmuş mexanizm və sistem üzrə artıq adi hala çevrilmiş, hazırda davam edən beynəlxalq idman və digər tədbirlərin keçirilməsi praktikası və yaradılmış mövcud infrastruktur Azərbaycanın dünya miqyasında nüfuzunun və imicinin yüksəlməsinə, möhkəmlənməsinə xidmət edir. Daxili sabitlik - xalqın maddi-mənəvi təminatı, sosial siyasətin düzgün həyata keçirilməsinin və xüsusən, ardıcıl siyasətin nəticəsidir.

### Ermənistanın baş naziri Nikol Paşinyan və "Arsenal"ın erməni əsilli futbolçusu Henrix Mxitaryan da Azərbaycanın təbliğatını sona qədər apardılar

Eyni zamanda, sabit əmin-amanlıq dövlətin xarici siyasətdə inamlı və qətiyyətli, milli mənafeyə uyğun iqtisadi və digər siyasət yürütməsinə əsas verir və Prezident İlham Əliyevin bütün detallar və aidiyyəti olan bütün cari və perspektiv sahələr nəzərə alınmaqla, çevik və komplekt siyasət yürütmək istedadı və syiasi temperamenti bundan maksimum istifadə olunmasına münbit imkanlar yaradır.

Əlbəttə, xarici siyasətin düzgün həyata keçirilməsi - dünyada dostluq, əməkdaşlıq, tolerantlıq və inkişaf devizi ilə konkret layihələr və təşəbbüskarlıq həyata keçirən Azərbaycan dövləti və rəsmi Bakı, sözün həm məcazi, həm də əsl mənasında, finallara ev sahibliyi etmək statusu qazanmışdır.



Bakıda keçirilən ingilis finalı isə, şübhəsiz ki, ilk növbədə, ingilis futbol məktəbinin şousu kimi çox qiymətli və diqqətçəkən idi ki, bu amil dünyada olan bütün futbol və bütün idman ictimaiyyətinin nəzərini cəlb edən məsələ idi, bunu arzulayan da, arzulamayan da, istəyən də, istəməyən də, hətta erməni azarkeşləri də diqqətlərini Bakı şəhərinə çevirməyə məcbur idilər! Bu düzgün xarici siyasətin cari uğuru kimi qiymətləndirilə bilər. Üstəlik də, Azərbaycan dövlətinin ağılsız qara piarçıları bir az Bakının təbliğatına yardım etdilər, hətta siyasətdə belə bir düstur var ki, o düsturu tətbiq edərkən, düşmənin də hər hansı hərəkət və hərəkətsizliyindən istifadə edilir. Bu məqamda, Ermənistanın baş naziri Nikol Paşinyan və "Arsenal"ın erməni əsilli futbolçusu Henrix Mxitaryan da Azərbaycanın təbliğatını sona qədər apardılar. Yəni onların da hərəkəti, əslində, Azərbaycan dövlətinin siyasətinə xidmət etmiş oldu.

Dünyanın gözlərinin Bakıya çevirdiyi vaxt, demək olar ki, bütün dövlətlərin yerli və nüfuzlu beynəlxalq telekanalların kameraları vasitəsilə 204 ölkəyə, o cümlədən, Ermənistana translyasiya olunmaqla, təxminən 2 milyardlıq auditoriyanın diqqəti Bakıya yönəlmişdi. Yaxud da Bakı növbəti dəfə həmişəki kimi yeni bayram əhval-ruhiyyəsi ilə dünyaya təqdim olunurdu.

### "Azərbaycan naminə birləşək" kampaniyası - Azərbaycanda əyalətdə və mərkəzdə, kənddə və şəhərdə cəsarətlə istənilən bir evin qapısını döyün

Biz Azərbaycan vətəndaşlarını 13-23 may tarixlərində "Azərbaycan naminə birləşək" kampaniyası ilə birləşməyə yer, doğum və dil, milli və dini mənsubiyyətinə fərq qoymadan, hər kəsə Azərbaycan qonaqpərvərliyini, Azərbaycandakı inkişaf və əmin-amanlığı, Qafqaz mərdliyininin şahidi olmaq üçün ölkəmizə dəvət etməyə səslədik. Və avropalı, asiyalı, afrikalı, yaxud amerikalılara müraciət edərək dedik. "Buyurun, siz Azərbaycanda əyalətdə və mərkəzdə, kənddə və şəhərdə cəsarətlə istənilən bir evin qapısını döyün", azərbaycanlılar sizi içəri dəvət edib ən gözəl nemətlərə qonaq edəcəklər.

Biz 3 dildə məqalə və videoroliki Bakıda olan bütün diplomatik nümayəndəliklərə, xaricdə olan çox sayda beynəlxalq digər təşkilatların elektron ünvanlarına göndərdik, və yenə deyirik ki, bunu kampaniya yox, daimi xarakter və gündəlik iş kimi qəbul edək. Gəlin "Azərbaycan naminə birləşək" və növbəti uğurlara imza ataq!

***Region Analitik İnformasiya Mərkəzi***

# İsa Həbibbəyli: “Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli ünsürlər öz xəyanətkar maraqlarını icra etsinlər”

***“Sağlam düşüncəli hər bir şəxs çox yaxşı bilir və xatırlayır ki, 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü gənc və müstəqil dövlətimizi uçuruma doğru apardı”. Bu fikirləri SİA-ya millət vəkili İsa Həbibbəyli Azərbaycan dövlətinin əldə etdiyi və bütün sahələri əhatə edən uğurlarına, eləcə də, Prezident İlham Əliyev tərəfindən reallaşdırılan sosial-iqtisadi islahatlara kölgə salmağa cəhdlər göstərən daxili və xarici düşmənlərin fəaliyyətlərini şərh edərkən deyib.***



Millət vəkilinin sözlərinə görə, bu gün Azərbaycan bütün mənalarda sabitlik adası kimi qiymətləndirilir, dünyanın bir çox qlobal məsələlərində ölkəmiz söz sahibinə çevrilib. “Belə ki, istər sosial, istər iqtisadiyyat, istər mədəniyyət, istər idman və s. sahələrdə ölkəmiz mərkəz rolunu oynayır. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının müdrik, uzaqgörən, məqsədyönlü və qətiyyətli siyasətinin bariz nəticələridir” deyən İsa Həbibbəyli vurğulayıb ki, bir zamanlar Azərbaycan məhv olurdu və insanlar xaos və anarxiya burulğanında ölümlə üz-üzə qalmışdı: “Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi və ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi və hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Əlbəttə ki, xalqımız bu əzaba dözə bilməzdi və dözmədi də. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində, Onu çağıran, Ondan pənah uman xalqımızın siyasi iradəsi sayəsində ölkəmiz məhv olmaqdan qurtuldu. Ona görə də, bu gün hər vəchlə qarayaxma kampaniyaları aparan və xaricdəki erməni lobbisinin qarşısında nökərçilik edən ünsürlər bilməlidirlər ki, Azərbaycan xalqı onları yaxşı tanıyır. Bu gün “biz yenə gələcəyik” deyənlərlə Avropada erməni dəyirmanına su tökənlər arasında heç bir fərq yoxdur, onların ucuz və cılız təfəkkürlərinə əsaslanan dağıdıcılıq maraqları isə, gerçəkləşməmiş qalacaq. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir”.

“Bu gün ölkəmizdə xalq - iqtidar vəhdəti elə möhkəm əsaslara söykənib ki, həmin əsaslar sarsılmazlığı ilə yanaşı, həm də bənzərsizdir. Dünyanın heç bir ölkəsində belə birlik və belə dəstək yoxdur. Çünki Prezident İlham Əliyev daim xalqın arasındadır və xalqın içindədir. Onun istər paytaxtda, istərsə də regionlara səfəri zamanı, bilavasitə sadə xalqla təmas qurması, problem və qayğıları ilə maraqlanması xalqın öz Prezidentinə olan inamını və etimadını daha da artırır. Əlbəttə ki, Prezident İlham Əliyev Cənabları da öz çıxışlarında vurğulayır ki, O, daim xalqına güvənir. Bax, bu reallıq Azərbaycanımızın daha da güclənməsinə, sarsılmaz təməllərə söykənməsinə kifayət qədər təkan və stimul verməkdədir. Ona görə də, Azərbaycanın əleyhinə fəaliyyət göstərən ünsürlər bilməlidirlər ki, onların çirkin maraqları heç vaxt istədikləri nəticəni verməyəcək”.

**RƏFİQƏ KAMALQIZI**

# Bavitlunq Vanlalvavna: Naxçıvana səfər məndə böyük təəssürat yaratdı

Naxçıvan Muxtar Respublikasına səfər etməkdən, bu gözəl məkan ilə tanışlıqdan çox məmnunam. Üç aydır Azərbaycandayam və sevinirəm ki, bu qüdrətli ölkənin qədim diyarına da gəlmişəm.

Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna deyib. “Səfər çərçivəsində mən Naxçıvanın mədəni-tarixi abidələri ilə tanış oldum. Bir diyarın müasirləşməsi ilə paralel qədimliyini də qoruyub saxlaması, həqiqətən, təqdirəlayiq haldır. Səfər müddətində mən bir sıra rəsmi görüşlər də keçirdim, qarşılıqlı fikir mübadiləsi apardıq. Gələcəkdə bir sıra sahələrdə əməkdaşlığımızı daha da genişləndirməyi planlaşdırırıq. Xüsusilə mədəniyyət kollektivlərinin qarşılıqlı şəkildə gediş-gəlişini təmin etmək, bir sözlə, mədəni əlaqələri gücləndirmək niyyətindəyik”, - deyə o bildirib.

Bavitlunq Vanlalvavna deyib: “Səfər müddətində Naxçıvanın bir sıra istehsal və sənaye müəssisələrində də oldum, quraşdırılan avadanlıqların müasir tələblərə cavab verməsi, istehsal edilən materialların yüksək keyfiyyətə malik olması xüsusilə diqqətimi çəkdi. Fikrimcə, iqtisadiyyat sahəsində də əməkdaşlığımızı gücləndirməliyik və bu, həm Hindistan, həm də Azərbaycanın bu qədim diyarı üçün olduqca uğurlu nəticələr verə bilər. Onu da qeyd edim ki, Naxçıvana gəldiyim gündən buradakı səmimi atmosfer, sakitlik, təmizlik çox xoşuma gəldi. İnsanlar çox mehriban və qonaqpərvərdirlər. Şəhərin görünüşü insanı heyran edir. Qədim abidələr, yaşıllıq ərazilər xoş duyğular bəxş edir. Gəzdikcə, ətrafı seyr etdikcə insana sanki mənəvi rahatlıq gəlir, əhval-ruhiyyən artır. Bir sözlə, Naxçıvan məndə böyük təəssürat yaratdı və bu diyara gələcəkdə də səfər etmək niyyətim var”.



# Jalə Əliyeva: “Avroliqanın final matçı bir daha sübut etdi ki, Azərbaycan belə yarışların keçirilməsinə hər zaman hazırdır”

***Paytaxtımız on minlərlə futbol azarkeşini qəbul etdi. Bu fakt bir daha özünü təsdiqlədi ki, Azərbaycan regionun inkişaf etmiş sabit ölkəsidir.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva söyləyib. Deputat qeyd edib ki, dünya ictimaiyyəti gördü ki, Azərbaycan tolerant və hüquqların qorunduğu bir ölkədir. Hər dəfə olduğu kimi, bu dəfə də ölkəmizin əleyhinə qarayaxma kampaniyaları təşkil edildi. Bu, erməni lobbisinin Azərbaycana qarşı apardığı informasiya müharibəsidir. Erməni dəyirmanına su tökən qüvvələrin bu cür gülünc əməlləri artıq adi hal alıb. Azərbaycan əleyhinə səsləndirilən belə yalan fikirlərə dünya ictimaiyyəti də əhəmiyyət vermir. Bütün bunları həm də UEFA Avropa Liqasının final oyununa on minlərlə azarkeşin gəlməsi sübut etdi.

Deputat əlavə edib ki, final matçı yüksək səviyyədə təşkil olundu və ölkəmizə gələn qonaqlar da razı qaldılar. Bu, bir daha sübut etdi ki, Azərbaycan belə yarışların keçirilməsinə hər zaman hazırdır. Jalə Əliyeva qeyd edib ki, ölkəmizin inkişafını gözü götürməyənlər çirkin kampaniyalarla heç nəyə nail ola bilməyəcəklər. Azərbaycanda iqtidar ilə xalq arasında monolit birlik var. Bu gün Prezident İlham Əliyevin apardığı uğurlu siyasəti Azərbaycan xalqı dəstəkləyir.



## Şəhid zabitimiz Qaxda torpağa tapşırılıb

Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində düşmən snayperinin açdığı atəş nəticəsində şəhid olan Azərbaycan Ordusunun zabiti, mayor Omarov Aqil Akif oğlu mayın 31-də Qax rayonunun Lələpaşa kəndində torpağa tapşırılıb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin rəsmiləri, şəhidin doğmaları, ictimaiyyətin nümayəndələri, kənd sakinləri iştirak ediblər.

Dəfn mərasimində çıxış edənlər şəhidin ailəsinə başsağlığı verib, torpaqlarımızın azadlığı uğrunda həlak olan qəhrəman oğullarımızın qanının yerdə qalmayacağını, tezliklə düşməndən qisas alınacağını bildiriblər. Şəhidin nəşi yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

## “Əməkhaqqı və pensiya sahəsində yeni təkliflər hazırlanır”

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi digər aidiyyəti qurumlarla birlikdə əməkhaqqı və pensiya sahəsində yeni təkliflər hazırlayır. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. “Sosial paketin növbəti mərhələsi hazırlanmaqdadır. Əməkhaqqı və pensiyalar ilə bağlı yeni təkliflərimiz olacaq. Yaxın günlərdə bu təklifləri ölkəmizin başçısına təqdim edəcəyik”, - deyə nazir diqqətə çatdırıb.

## Surqut aeroportuna Fərman Salmanovun adı verilib



Rusiya Prezidenti Vladimir Putin aeroportlara ölkənin görkəmli şəxsiyyətlərinin adlarının verilməsi barədə fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, sənədə əsasən, Rusiyanın Surqut aeroportuna Sibir neft yataqlarını kəşf etmiş əfsanəvi geoloq, soydaşımız Fərman Salmanovun adı verilib. Xatırladaq ki, “Rusiyanın dahi adları” müsabiqəsi ötən il keçirilib. Rusiyalılar 47 aeroporta dahi şəxsiyyətlərin adlarının verilməsi üçün səsvermədə iştirak ediblər.

## “Sənətkar üçün bundan gözəl nə ola bilər?!”



“Sənət insanı üçün bu addan gözəl nə ola bilər?! Sürpriz xəbər oldu. Xəbəri böyük oğlum çatdırdı, təbii ki, çox sevindirici haldır. İndi məsuliyyət daha da çoxalır. Bu, dövlətimizin bizə böyük diqqətidir”. SİA-nın məlumatına görə, bu sözləri açıqlamasında xalq artisti adına layiq görülən, sevilən sənətçi İlqar Muradov deyib. O, bildirib ki, bir neçə ay sonra solo konsertlə çıxış edəcək: “Artıq növbəti konsertdə tamaşaçıların qarşısına Xalq artisti kimi çıxacağam”.

# YAP Tərtər rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib






***Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.***

Rayondakı Gənclər Mərkəzində keçirilən konfransı giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov deyib ki, rayon təşkilatının gənclər birliyi hesabat dövrü ərzində, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Qeyd olunub ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmizdə gəncliyin inkişafı və yüksək səviyyədə təhsil alması istiqamətində hər cür şərait yaradılıb. Gənclər ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

YAP Tərtər rayon təşkilatı gənclər birliyinin sədri Emin Pənahov ötən konfransdan keçən müddətdə qurumun fəaliyyəti haqqında hesabatla çıxış edib. Qeyd olunub ki, rayon təşkilatının qeydiyyatında olan 6450 nəfər partiya üzvündən 1388 nəfəri gənclər, 3466 nəfəri isə qadınlardan ibarətdir.

Məruzə ətrafında Buruc kənd tam orta məktəbinin müəllimi Gülsəba Tağıyeva, Qaynaq kənd ümumi orta məktəbinin müəllimi Murad Hüseynov, mərkəzi rayon xəstəxanasında tibb bacısı işləyən Aygün Cəfərli, Evoğlu kənd tam orta məktəbinin müəllimi Elcan Nadirli çıxış edərək, gənclər birliyinin hesabat dövrü ərzindəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi, iqtisadiyyatın daha da möhkəmləndirilməsi, infrastrukturun inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həlli, tikinti-quruculuq və yaşayış məntəqələrinin abadlaşdırılması sahəsində görülən işlərdən və dövlət başçısı Cənab İlham Əliyevin cəbhə bölgəsində yerləşən Tərtər rayonuna göstərdiyi diqqət və qayğıdan danışıb.

M.Məmmədov onu da qeyd edib ki, Azərbaycan gəncliyi ictimai-siyasi və sosial-iqtisadi sahələrdə aktiv fəaliyyət göstərir: “Müasir Azərbaycan gəncləri özlərini cəmiyyətin fəal təbəqəsi kimi təsdiqləyiblər. Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini, birmənalı şəkildə, dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətlərindəndir”.

Konfransda çıxış edən Milli Məclisin deputatı İlham Məmmədov isə qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda, xalqın istək və arzularının nəticəsi olaraq, tarixi zərurətdən yaranıb: “Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən ölkəmizin siyasi səhnəsində uğurla fəaliyyət göstərərək, müstəqilliyimizin qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, iqtisadiyyatımızın inkişaf etdirilməsinə özünün layiqli töhfələrini verib. Bu gün də partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə öz prinsiplərinə sadiqliyini nümayiş etdirir”.

Sonra konfransda təşkilati məsələlərə baxılıb. YAP Tərtər rayon təşkilatı gənclər birliyinin 11 nəfərdən ibarət şurası, 5 nəfərdən ibarət idarə heyəti, Tunarə Məmmədzadə rayon təşkilatının gənclər birliyinin sədri və sədr müavinləri, həmçinin, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin növbəti konfransına 2 nəfər nümayəndə seçilib.

Sonda Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul edilib.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Siyəzən rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib





***Dünən YAP Siyəzən rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Konfransda 200 nəfərdən çox nümayəndə iştirak edib.***

Konfransı giriş sözü ilə açan YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov bildirib ki, Azərbaycanda dövlət-gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: “Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Prezidentimiz İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir”.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Siyəzən rayon təşkilatı gənclər birliyinin sədri Rəşad Rəhmanov, ötən müddət ərzində, gənclərin fəallığından, rayonun ictimai-siyasi həyatında yaxından iştirakından, dövlətə, dövlətçiliyə və ölkə başçısının həyata keçirdiyi siyasətə dəstək olmasından danışıb.

Daha sonra çıxış edən partiyanın fəal üzvü Elvin Kərimov bildirib ki, gənclərimiz günümüzün aktual məsələlərini geniş şəkildə təhlil edirlər: “Məhz bu amil, deməyə əsas yaradır ki, bizim gənclərimiz çox fəaldırlar. Onlara çox böyük ümidlər var, onlar öz təhsillərini, fəaliyyətlərini müstəqil Azərbaycanda qurublar”.

Konfransda təşkilati məsələlərə baxılaraq, YAP Siyəzən rayon təşkilatı gənclər birliyinə 15 nəfərdən ibarət şura üzvü, 9 nəfərdən ibarət idarə heyəti müəyyənləşdirilib. Elvin Kərimov isə rayon təşkilatı gənclər birliyinin sədri seçilib. Həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr müəyyənləşdirilib.

Sonda Siyəzən rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov çıxış edərək, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də təhsil, səhiyyə və idman həyatında gənclərin uğurlarından danışıb.

**ZÜMRÜD BAYRAMOVA**

# 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

Bu gün bütün dünya Uşaqların Beynəlxalq Müdafiəsi Gününü qeyd edir. Bunun yarım əsrdən artıq tarixi var. 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunan “Qadınların Beynəlxalq Konfransı”nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib. Elə həmin tədbirdə də, 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərara alınıb. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. BMT-də Uşaq Hüquqlarına dair Konvensiya qəbul edilib və Uşaq Hüquqları Konvensiyası - BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqların Konvensiya ilə müəyyən edilmiş hüquqlarını təmin edir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə müasir uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması kimi məsələlərin zəruriliyini nəzərə alaraq, əlverişli mənəvi və sosial mühitin yaranması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uşaqların qayğısına qalaraq intelekti yüksək olan, savadlı nəslin yetişməsinə tələb olunan şəraitin yaradılmasına önəm verilir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə, Azərbaycan müstəqillik dövründə, uşaq hüquqlarının qorunması və cəmiyyətimizin bu sahədə maarifləndirilməsi sahəsində çoxsaylı layihə və proqramlar həyata keçirib. 2002-ci ildə Azərbaycan qeyd olunan Konvensiyanın iki əlavə protokoluna qoşulub. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il avqustun 24-də “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun təsdiqi ilə bağlı imzaladığı Fərmanı uşaqların hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı, yaşamaq və inkişaf etmək, tərbiyə almaq, şərəf və ləyaqətinin müdafiəsi hüquqlarının təmin olunmasında böyük əhəmiyyətə malikdir. Bu sənəd cəmiyyətdə uşaqların müdafiəsinə və onların inkişafına xüsusi təkan oldu.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsas götürülərək, müasir dövrdə uşaq və gənclərin vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyə sisteminin hüquqi əsası formalaşdırılmış və normativ mənbə kimi bir sıra proqramlar qəbul edilmişdir. Uşaq siyasətinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə bir sıra uğurlu dövlət proqramları və layihələr reallaşır. Uşaq siyasəti ilə bağlı Prezident İlham Əliyevin Fərmanı ilə “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilib. Qaydalar uşaq sahəsində nəzarətin gücləndirilməsi, müvafiq dövlət orqanlarının uşaq sahəsində fəaliyyətinin əlaqələndirilməsi baxımından, xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısının Sərəncamına əsasən, “Azərbaycan Respublikasında dövlət-uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)” ölkəmizdə uşaqlara dövlət səviyyəsində göstərilən diqqətin daha bir nümunəsi idi.




Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti” Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51.7-ci maddəsinə uyğun olaraq, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin təşkilini və həyata keçirilməsini tənzimləmiş oldu. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması idi. Eyni zamanda, uşaq hüquqlarının pozulmasına səbəb olan halların qarşısının alınmasında əhəmiyyətli bir sənəddir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə ki, fond xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və qayğı ilə yanaşır. Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlərin keçirilməsinə təkan verir. Fondun həyata keçirdiyi “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə”, “Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi” layihələri, məhz uşaqların fiziki və mənəvi sağlamlığı, yetkin bir şəkildə formalaşması istiqamətində həyata keçirilir. Fond tərəfindən “Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” çərçivəsində aparılan əsaslı təmir və yenidənqurma işləri cəmiyyətdə əks-səda yaradıb. Bu gün uşaq və gənclərin mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün bütün tədbirlər həyata keçirilir. Bundan başqa, onlarda milli mədəniyyətimizə maraq, ümumbəşəri və milli dəyərlərin mənimsənilməsinə olan tələbat, bədii zövq və incəsənətə meyil, cəmiyyət həyatında iştirakın formalaşmasına hərtərəfli yardım göstərilir. Təhsil müəssisələrində uşaq və gənclərin istirahəti və asudə vaxtlarının təşkilinə diqqət artırılmışdır. Peşə seçimi, iqtisadi və əmək tərbiyəsi onlarda bir sıra amillərin formalaşmasına səbəb olmuşdur: sosial və iqtisadi mədəniyyət, əməyin şəxsi və ictimai əhəmiyyətinin dərk edilməsi, uşağın bu prosesdə iştirakı və şəraitə uyğunlaşmaq bacarığı, yaradıcı praktik düşüncə, təhsil və peşəkarlıq dəyərlərinə maraq və s. problemlərin uğurlu həlli bütün cəmiyyətin həyat fəaliyyəti və onların sonrakı mütərəqqi inkişafından asılıdır.

Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan gələcəyin qurucusu olacaq, uşaqların sabahı üçün böyük tədbirlər görür və dünyanın işıqlı sabahını təmin edir.

**ZÜMRÜD BAYRAMOVA**

## “İqtisadiyyat və İdarəetmə” ixtisasları üzrə magistrlərin I beynəlxalq elmi konfransı keçirilib

Dünən “İqtisadiyyat və İdarəetmə” ixtisasları üzrə təhsil alan magistrlərin I beynəlxalq elmi konfransı keçirilib. “Fairmont Baku Flame Towers” otelində təşkil olunan konfransda təhsil naziri Ceyhun Bayramov, təşkilat və komitə sədrləri, millət vəkilləri, rektorlar, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər. Konfransdan öncə iştirakçılar BMDM-nin magistrlərinin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Beynəlxalq konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

UNEC-in rektoru, professor Ədalət Muradov magistrləri I Beynəlxalq Elmi Konfransın keçirilməsi münasibətilə təbrik edərək, konfransın işində onlara uğurlar arzulayıb. UNEC-in elmi tədqiqatyönümlü universitetə çevrilməsi istiqamətində atdığı addımlardan danışan rektor, universitetdə elmi fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən islahatlara diqqət çəkərək, UNEC müəllimlərinin Web of Science də çap olunan məqalələrinin 76%-nin məhz son 4 ilin payına düşdüyünü bildirib. Rektor UNEC-də iqtisadiyyat elminin aktual problemlərini araşdıran 26 tədqiqat mərkəzinin yaradıldığını, həmin mərkəzdə aparılan tədqiqatın nəticələrinin dünyaca məşhur Şpringer nəşriyyatında çap olunduğunu xüsusi vurğulayıb. Kitabın Şpringer nəşriyyatında iqtisadiyyat üzrə Azərbaycandan nəşr olunan ilk və yeganə olduğunu diqqətə çatdırıb. Rektor magistr və tələbələrin elmi fəaliyyətlərinin stimullaşdırılması məqsədilə UNEC-də mükafatlandırma sisteminin yaradıldığından da söz açıb. Bildirib ki, impact dərəcəsindən asılı olaraq nüfuzlu jurnallarda çap olunan hər bir məqaləyə görə UNEC-in bakalavr və magistrləri 4000 manatadək mükafat əldə edə bilirlər. Ə.Muradov UNEC-in ikili diplom proqramlarına da toxunub. Yeni tədris ilindən UNEC-in ABŞ-ın Linkoln universiteti ilə magistratura pilləsi üzrə ikili diplomu reallaşdıracağını deyən rektor, həmin magistrlərin təhsil aldıqları müddətdə lisenziya əsasında ABŞ-da əmək fəaliyyəti ilə də məşğul ola biləcəklərini deyib.



Təhsil naziri Ceyhun Bayramov bilik iqtisadiyyatı dövründə hərtərəfli və dayanıqlı inkişafın təmin edilməsində elm və təhsilin rolunun artdığını bildirib. İqtisadiyyatın inkişafında ali təhsilin rolunun xüsusi önəm kəsb etdiyini diqqətə çatdıran nazir Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın əsas məqsədlərinə toxunub. Strategiyanın hədəflərinə uyğun olaraq, son 6 ildə ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayında 20,8 faiz artım müşahidə edildiyini, 2018-ci ildə 41 mindən çox şəxsin tələbə adını qazandığını vurğulayıb. Nazir ali təhsilin hamı üçün əlçatan olmasının dövlət siyasətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin sayının 66 faiz təşkil etdiyini, hazırda magistratura səviyyəsində qəbul dinamikasında da artımın müşahidə olunduğunu bildirib. Nazir ölkədə elmi nəşrlərin keyfiyyətinin və sayının artırılması istiqamətində də ciddi addımlar atıldığına diqqət çəkərək, 2018-ci ildə Azərbaycanın Cənubi Qafqaz regionunda inkişaf dinamikasına görə lider olduğunu vurğulayıb.

UNEC-in Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin (BMDM) direktoru, dosent Fariz Əhmədov rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışıb. Bildirib ki, BMDM-də 11 ixtisas və 39 ixtisaslaşma üzrə 4 dildə tədris aparılır. Mərkəzdə 1200-dək yerli və əcnəbi magistrin təhsil aldığını deyən F.Əhmədov onların beynəlxalq və elmi uğurları barədə də danışıb. UNEC-in magistrlərinin 4 məqaləsinin “Web of Science”də indeksləşmiş jurnallarda dərc olunduğunu qeyd edib. F.Əhmədov konfransa yerli və əcnəbi magistrlər tərəfindən 385 məqalənin təqdim edildiyini bildirib.

Plenar iclasda UNEC magistrləri 4 dildə təqdimatla çıxış ediblər.

Sonda təhsil naziri Ceyhun Bayramov magistrlərə sertifikatları təqdim edib.

Konfrans öz işini plenar iclaslarda davam etdirəcək. İyunun 2-dək davam edəcək konfransda iqtisadiyyat və idarəetmə ixtisaslarında təhsil alan həm yerli, həm də xarici ölkələrdən olan gənclər bir araya gələrək, magistr tədqiqatlarının nəticələrinin paylaşılması, elmi araşdırmaların keyfiyyətinin artırılması istiqamətində fikir mübadiləsi aparacaqlar.

# Xədicə İsmayıl və Nikol Paşinyan birliyi hansı faktlara əsaslanır?

## *Və ya Mxitaryana və erməniçiliyə ortaq sevgi nümayişi*

***Azərbaycan növbəti dəfə böyük və fantastik idman yarışına - UEFA-nın futbol üzrə Avropa Liqası finalına ev sahibliyi etdi və bu final, əslində, "Çelsi"-"Arsenal"ın Bakı derbisinə qədər bir çox məqamları üzə çıxarmış oldu. Xüsusilə, dəfələrlə erməni lobbisinə canla-başla xidmət etdiyi sübuta yetirilən Xədicə İsmayılın, məhz "Arsenal"ın erməni əsilli futbolçusu Henrix Mxitaryanın ətrafında var-gəl edərək xal, qrant və daha nələr qazanmaq ehtirası bu dəfə bütün çərçivələri aşdı. Çərçivələri aşdı ona görə ki, X.İsmayıl Mxitaryanın Bakı derbisinə qatılmamasını Azərbaycanda rasizm (irqçilik) siyasəti ilə əlaqələndirməyə çalışdı. Yəni sən demə, günahkar ölkəmizdəki "irqçi ayrı-seçkilik" siyasətiymiş və s. Bu kimi əsassız, yöndəmsiz iddialarını, əlbəttə ki, işlədiyi erməni lobbisi və lobbinin təlimatlandırdığı xarici təşkilatların sifarişi ilə sosial şəbəkədə ingilis dilində (?!) ictimailəşdirən X.İsmayıl bu vasitə ilə siyasi həyasızlığının nə qədər pik nöqtədə dayandığını isbatladı.***



### Fakt budur ki, Xədicə erməni ağalarının nökəridir

Əslində, X.İsmayılın bu və ya bu kimi bənzər anti-Azərbaycan xarakterli statusları təəccüblü görünmür. Əgər düşünsək ki, bu xain ünsür düşmənlərimizə qan udduran milli qəhrəmanlarımızı "qatil", "cinayətkar" adlandırır, onda başqa söz deməyə də ehtiyac qalmır. Fakt budur ki, Xədicə erməni ağalarının nökəridir və bu nökərçiliyi sayəsində gündəlik haram çörəyini kifayət qədər gen-bol gödəninə doldurmaqdadır.

Yenidən qayıdaq "irqçi ayrı-seçkilik" siyasəti ittihamı ilə əlaqələndirilən Mxitaryan məsələsinə. Sirr deyil ki, Azərbaycan dünyanın multikultural və tolerantlıq mərkəzi kimi tanınır və hər il Bakıda bu mövzularla bağlı beynəlxalq forumlar və böyük tədbirlər həyata keçirilir. Bu tədbirlərdə dünya ölkələrinin ən nüfuzlu siyasət, elm, mədəniyyət xadimləri iştirak edir, Azərbaycan xalqının tarixlərə söykənən multikultural və tolerantlıq dəyərlərinə ən yüksək qiymətlər verirlər. Hətta Avropa mədəniyyətinin ən aparıcı çevrələrində ksenofobiya, irqçilik və bu kimi məsələlər problem olaraq qalmaqdadırsa, ölkəmizdə belə məsələlər köklü şəkildə mövcud deyil. Bu zaman sual yaranır ki, Mxitaryanın Bakıya gəlməməsini sözügedən sərsəm ittihamı ilə əlaqələndirən X.İsmayıl öz iddialarını hansı faktlara əsaslandıraraq dilə gətirir, ya da sosial şəbəkədə ictimailəşdirir? Çünki fakt budur ki, erməni futbolçu UEFA-nın finalına gəlməməsi ilə, bilavasitə erməni lobbisinin, hebelə, Ermənistan hakimiyyətinin sifarişi ilə təqdim etməyə çalışıb. Bunu isə, sübut etmək heç də çətin deyil!

### Paşinyanın Mxitaryana dəstəyi: "Mən Henrinin Bakının irqçi mövqeyinə görə qatıla bilmədiyi "Arsenal"- "Çelsi" oyunundan əvvəl ona dəstək olduğumu dedim..."

Beləliklə, X.İsmayılın sərsəm iddiasının ardınca, keçid alaq Ermənistanın baş naziri Nikol Paşinyanın hələ oyundan əvvəl H.Mxitaryanla apardığı telefon danışığına. Bu barədə "Sputnik Armeniya" yazır ki, Paşinyan Qazaxıstanın paytaxtı Nur-Sultandan geri dönər-dönməz erməni futbolçusuna zəng edərək, bildirib ki, onunla fəxr edir və s. Sonra isə, fikirlərini "Facebook"da yazan Paşinyan əlavə edib. SİTAT: "Mən Henrixin Bakının irqçi mövqeyinə görə qatıla bilmədiyi "Arsenal"- "Çelsi" oyunundan əvvəl ona dəstək olduğumu dedim..."

Göründüyü kimi, Paşinyanın sırf və adətkar erməni həyasızlığı ilə Xədicənin müvafiq sərsəm mövqeyi üst-üstə düşür və heç bir fərq görünmür. Bu, o deməkdir ki, Mxitaryanın Bakıya gəlməməsində həm X.İsmayıl, həm də N.Paşinyan birbaşa həmfikirdirlər və burada Paşinyanı, müəyyən mənada anlamaq olar ki, o, işğalçı və düşmən dövlətin başçısıdır, bəs Xəccə..?

X.İsmayıl Azərbaycan vətəndaşıdır və onun Paşinyanla eyni dildə ölkəsinə qarşı düşmənçilik mövqeyi sərgiləməsi heç bir çərçivəyə sığa bilməz. Bunun bir adı var - XƏYANƏT! Xəyanətlər isə, bildiyimiz kimi, cəzasız qalmır.

### "Vestnik Kavkaza": "Britaniyalı fanatlar deyirlər ki, Mxitaryan bura (Bakıya) gəlsə idi, onun üçün heç bir təhlükə olmayacaqdı"

Yuxarıda da qeyd edildiyi kimi, X.İsmayıl xarici ölkələrdə olarkən də, birbaşa erməni lobbisinin tapşırıqları əsasında, hətta ölkəmizin ümummilli məsələlərinə həsr olunmuş iclas və tədbirlərinə qatılaraq, Ermənistanın maraqlarını təbliğ edən şüarlar səsləndirib və plakatlar qaldırıb. Misal üçün, bir neçə il öncə, Praqada Xocalı soyqırımına və Qarabağın işğalına həsr olunmuş tədbirdəki kimi...

Ancaq nədənsə, Xədicə heç vaxt həmfikri Nikola deməyib ki, bu gün Ermənistanda mövcud olan irqçilik siyasəti bu ölkənin monoetnikliyinin bariz nümunəsidir. Hətta bir neçə min nəfər yezidi kürdünə qarşı dözümsüz yanaşan Ermənistanın hakim dairələri zaman-zaman bu xalqı diskriminasiyaya məruz qoyurlar. Biz hələ ruslara qarşı dözümsüzlüyü demirik, xüsusilə də, Paşinyan hakimiyyəti tərəfindən. Belə olan halda, Mxitaryanın Bakı üzərindən oynamaq istədiyi oyunbazlığı dünya birliyi tərəfindən istehza ilə qarşılandı. Hətta britaniyalı fanatlar deyirlər ki, Mxitaryan bura (Bakıya) gəlsə idi, onun üçün heç bir təhlükə olmayacaqdı. Onlar bildiriblər ki, heç bir "Çelsi" və "Arsenal" tərəfdarları bir-birləri ilə dava etmədilər. Üstəlik, polis təhlükəsiziliyi ən yüksək səviyyədə qoruyub. Bu barədə "Vestnik Kavkaza" agentliyinin ingilis dilli bölümündə "British football fans: Henrikh Mkhitaryan would be safe in Baku" başlıqlı məqaləsində geniş şərh edilib.

Sonda isə, X.İsmayıl kimi bəhanələrlə gündəmdə qalmağa çalışan dağıdıcı təfəkkürlü müxalifətin, guya finalın emosiyasız keçdiyini iddia etmələrinə toxunaraq, qeyd etmək yerinə düşərdi ki, əgər Bakı finalı, həqiqətən də, maraqlı olmasaydı, bu qarşılaşma UEFA tarixində baş tutmuş digər qarşılaşmalarla müqayisədə 3-cü yerə sahib olmazdı. Çox yəqin ki, qaragüruhçular təkcə bu fakta görə gülünc iddialarından utanmalı və rüsvay olmalıdırlar. Əlbəttə ki, Pşianyanın səsinə səs verən X.İsmayılla bir yerdə...

*Rövşən NURƏDDİNOĞLU*



### Siyasəti anlamayan Cəmil Həsənli

RƏFİQƏ

***Qəribədir ki, bu gün özünü "siyasətçi" adlandıranlar çoxdur. Ancaq bu düşüncə səhv anlamdır. Bu səhvi isə anlamaq və onu etiraf etmək hər adamın da işi deyil. Elə müxalifət düşərgəsində özlərinə "müxalifətçiyəm" deyən əlilər, isalar, ariflər, cəmillər... bu düşüncədən və reallıqdan çox-çox uzaqdırlar.***

O cümlədən, Cəmil Həsənli kimilər... Bu, o Cəmil Həsənlidir ki, özü böyda çirkin və iyrənc, bağışlanılmaz əməlləri ilə daha da hörmətdən düşərək, ziyalı adına layiq olmayan fikirlər səsləndirməklə, populist çıxışlar etməklə, özünü "lider" hesab etmək, heç də siyasətdən xəbərdar olmaq demək deyil. Elə buna görə də, bu qoca yaşında Həsənli müxalifət tərəfindən hər cür təhqirlərə məruz qalsa da, heç bir xəcalət hissi də keçirmir. Və ətrafı da, onu məzəmmət edib deyirlər ki, ay Cəmil, bu qoca vaxtında bu sənə lazımıydımı ki, getdin düşdün Ə.Kərimli kimi bir dələduz maşennikin toruna? Axı sən yaşlı adamsan, özünü "professor" sayırsan. Amma indi səni "professor" sayanlar bu gün səni heç i... yerinə də qoymurlar.

Bu yerdə yadıma 2013-cü ilin seçkilərindən bir epizod düşür. Həmin vaxt uzun illər müxlaifətdə olmuş bir qonşum mənə demişdi. Sitat: "Bu camaatı nə yerinə qoyur? Cəmi kimdir ki, ortaya düşüb, özünü "siyasətçi" sayır. Beləlləri ancaq xalqın düşmənidir. Erməni yalağında su içən, qohumluq edənin heç bu ölkədə yaşamağa da haqqı yoxdur. Lənət olsun onun canına. C.Həsənlinin çıxışlarına baxanda, mən bir seçici olaraq heç vaxt ona səs verməram. Çünki birinci növbədə, mən özüm-özümə hörmət edirəm. Digər tərəfdən, hesab edirəm ki, C.Həsənlinin arxasında duran bu komandanın topladığı "Milli Şura"nın özü elə erməni dəyirmanına su tökənlərdir. Məqsədləri də ölkədə sabitliyi pozmaqdır".

Düz sözə nə deyəsən ki? Fakt budur ki, müxalifətçi olmasına rəğmən, qonşumun proqnozları həmişə düz çıxıb. Söz yox ki, bu gün Ə.Kərimlinin ipli kuklasına çevrilmiş C.Həsənli indi də onun lazımsız oyuncağı kimi kənara atılıb. Burada isə, başqa məsələlər var.

Məsələn, bu düşərgədə yaşanan hər bir uğursuzluğun başında intriqalar, yersiz iddialar və şəxsi ambisiyalar və qrant havası var. Bu gün C.Həsənlinin səsi gəlmir. Çünki artıq o, yavaş-yavaş zibil qutusuna atılır. Onu zibil qutusuna atan isə, təbii ki, Ə.Kərimlidir. O Ə.Kərimlidir ki, birbirlərinə üzdə salam verib, ürəkdə söyüblər. Elə buna görə də, düşərgənin "elitasındakı" qondarma siyasətçilərin, C.Həsənli kimi siyasəti anlamayanların nala-mıxa döyəcləmələri də dəyirman daşının çaqqıltısından heç nəyi ilə fərqlənmir...

# "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər"

*Azərbaycan bu gün regionda və dünyada geosiyasi mövqeyini xeyli möhkəmləndirmiş, transmilli, qlobal əhəmiyyətli enerji layihələri sayəsində təhlükəsizlik, sabitlik və inkişaf məkanına çevrilmişdir. Milli enerji sektorunu hər cür asılılıqdan çıxarmaqla, özünün enerji təhlükəsizliyini tam təmin etmişdir. Azərbaycanda enerji sisteminin müasir standartlara uyğun yenidən qurulması, reablitasiya işlərinin aparılması, ölkəmizin müxtəlif regionlarında yeni generasiya güclərinin inşa edilməsinin nəticəsidir ki, özünün elektrik enerjisinə olan tələbatını tam ödəməyə nail olmuş, həm də bölgədə elektrik enerjisi ixracatçısı mövqeyinə çıxmaq imkanları əldə etmişdir. Ölkəmiz hazırda öz enerji təhlükəsizliyini təmin edə bilir, eləcə də bəzi digər dövlətlərin enerji təhlükəsizliyində də əsas rollardan birini oynayır. Azərbaycan dövlətinin enerji sektorunda əldə etdiyi nəticələrin ümumiləşdirilərək təhlilə cəlb edilməsi, bu sahədə yeni imkan və perspektivlərin nəzərdən keçirilməsi baxımından da, yeni bir fürsətdir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi islahatlar aparır, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Ölkəmizin əldə etdiyi bütün uğurlar əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda, əsas söz sahibi olan dövlət kimi, çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil siyasət həyata keçirən etibarlı ölkə kimi tanınır. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi islahatlar aparır, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır.*



### "Reabilitasiya Proqramı"

Bu günlərdə 10 milyoncu sakini dünyaya göz açan Azərbaycanda günü - gündən iqtisadiyyatımızın şaxələnməsi və zavod, fabriklərin artması, enerjiyə olan tələbatımızı artırır. Belə olan halda, nəzərə alsaq ki, İstilik - Elektrik Stansiyasılarının bəziləri istismar müddətini başa vurduğu üçün enerji blokları yükləmələrə tab gətirməyərək sıradan çıxır. Xatırladaq ki, Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik - Elektrik Stansiyasında ötən ilin iyul ayının 3-də baş verən qəza nəticəsində enerji sistemi çökmüş, həmçinin Şirvan şəhərində yerləşən ölkənin ikinci böyük elektrik stansiyası olan "Cənub" Elektrik Stansiyasındakı 2 ədəd 330 kV-luq avtotransformatordan birinin sıradan çıxmasına səbəb olmuşdur. Qəza nəticəsində, Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranıb. Bu cür arzuolunmaz qəzaların bir daha təkrarlanmaması üçün Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlərin həyata keçirilməsini və Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik - Elektrik Stansiyası istismar müddətini başa vurduğu üçün ən müasir səviyyədə yenidən qurularaq bərpa edilməsi işlərinə başlanılıb. Baş vermiş qəzanın təkrarlanmaması məqsədilə "Azərenerji" ASC tərəfindən hazırlanaraq dövlət başçısına təqdim edilən "Reabilitasiya üzrə Tədbirlər Planı" əsasında ötən ilin sentyabr ayından etibarən təxirəsalınmaz tədbirlər görülüb. Cənubi Qafqazın ən böyük istilik- elektrik stansiyası olan və respublikada elektrik enerjisinə olan tələbatın 43%-ni təmin edən 8 bloklu "Azərbaycan" İstilik-Elektrik Stansiyasında bütün parametrlər üzrə tikinti, yenidənqurma və bərpa işləri aparılır. Qeyd edək ki, son üç ay ərzində "Cənub", "Şimal" və "Bakı" elektrik stansiyalarında görülən işlər nəticəsində 230 MVt gücün bərpa edilib. Bundan əlavə, "Azərbaycan" İstilik-Elektrik Stansiyasının 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə təmirdən sonra 6 saylı enerji blokunda 60 MVt yük məhdudiyyəti aradan qaldırılıb. Həmçinin, 500 kilovoltluq Açıq Paylayıcı Qurğunun II dövrəsinin 7 saylı enerji bloku və 1 saylı əlaqə avtotransformatorunun bütün elementləri yeni avadanlıqlarla əvəzlənərək istismara verilib. Nəticədə 7 saylı enerji blokunun gücü 250 meqavatdan maksimum həddə - 310 meqavata çatdırılıb. Görülmüş işlər nəticəsində stansiyanın gücü 320 MVt artaraq 2000 MVt-a catacaq. Bununla yanaşı, hidrogen istehsal edən eloktroliz, oksigen qurğularında da təmir işləri aparılıb. Ümumilikdə, "Reabilitasiya proqramı" çərçivəsində Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası olan "Azərbaycan" İES tamamilə yenidən qurulur. Yeni turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kV-luq hava xətləri, əksqəza avtomatikası yenidən qurularaq bərpa edilir. Təhlükəsizlik üçün yanğınsöndürmə, inzibati bina və idarəetmə mərkəzi tikilir. Sexlər və laboratoriyaların yerləşəcəyi ofis binası təmir olunur, kimya sexi yenidən qurulur, çənlərin bünövrəsi, yeni çənlərin quraşdırılması və borularda izolyasiya işləri aparılır. Paralel olaraq hidrogen, azot-oksigen və hava kompressorları sexinin yerləşəcəyi binada, stansiyanın girişində mövcud yanğınsöndürmə nasosxanasında təmir işləri görülür, həmçinin yağ təsərrüfatının köçürülməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir. "Azərbaycan" İstilik-Elektrik Stansiyasında yeni inzibati bina və idarəetmə mərkəzi tikilir. Stansiya ərazisi perimetr boyu elektron hasarla əhatəyə alınması və kamera sisteminin qurulması işləri reallaşdırılır.

Məlum hadisə zamanı sıradan çıxan "Cənub" Elektrik Stansiyasındakı 2 ədəd 330 kV-luq avtotransformatordan birinin sıradan çıxmasına səbəb olmuşdu. Həmin sıradan çıxan, gərginliyi 330, 220 və 6 kV-a çevirən avtotransformator yerli ATEF Transformator Zavodunda təmir edilərək "Cənub" Elektrik Stansiyasındakı yerinə quraşdırılıb. Nəticədə, 330 və 220 kV-luq şəbəkənin etibarlılığı artırılıb, həmçinin xüsusi sərfiyyatda gərginliyin səviyyəsi 6 kV-dan 6,3 kV-a qaldırılıb. Bu isə xüsusi sərfiyyat mühərriklərinin işəsalma rejimini yüngülləşdirib və ehtiyat bəsləmə sisteminin etibarlılığını artırıb. Paralel olaraq hazırda "Cənub" Elektrik Stansiyasından "Xırdalan" yarımstansiyasına 108 km məsafədə 220 kV-luq yüksək gərginlikli yeni elektrik veriliş xətti çəkilib.

### Modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası

"Reabilitasiya proqramı" çərçivəsində Bakı şəhərində, habelə regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası istiqamətində işlər aparılır. Bir çox elektrik stansiyaları və yarımstansiyaların 500, 330, 320, 110 kV-luq hava xətləri, o cümlədən yarımstansiyaların yenidən qurulması işləri aparılır. Odur ki, dövlət tərəfindən ayrılan vəsait və daxili imkanlar hesabına "Azərenerji" ASC-nin balansında olan 220 kV-luq "Xırdalan" və "Müşfiq", 110 kV-luq "8-ci km", "Zabrat", "Əhmədli", "Dübəndi", "Maştağa", "Buta", "Ələt", "Zığ", "Sumqayıt-2", "Gəncə-1", "Quba", "Mingəçevir şəhər", "Sabirabad", "Şəki" və 205 saylı yarımstansiyalar yenidən qurulur. Bundan başqa, Sumqayıt şəhərində sənaye komplekslərinin qidalandırılması üçün yeni 110 kV-luq "Sulfanol" yarımstansiyası tikilir və işlər yekunlaşmaq ərəfəsindədir. "Reabilitasiya Proqramı"na müvafiq olaraq, hazırda yüksəkgərginlikli elektrik verilişi xətlərində modernləşmə həyata keçirilir, enerjinin idarə edilməsi üçün SCADA dispetçer sisteminin yenidən qurulması istiqamətində işlər görülür.

### "Azərenerji"nin Avropaya enerji ixracı

Azərbaycan dövlətinin enerji sektorunda əldə etdiyi nəticələrin ümumiləşdirilərək təhlilə cəlb edilməsi, bu sahədə yeni imkan və perspektivlərin nəzərdən keçirilməsi baxımından da, yeni bir fürsətdir. Azərbaycan, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verir. Ölkəmizin təşəbbüsü və iştirakı ilə regionda qlobal enerji layihələri həyata keçirilir. İrəli sürülən bütün alternativ təşəbbüslərə rəğmən, dünyanın mövcud geosiyasi mənzərəsini və müasir qlobal çağırışları müəyyənləşdirən başlıca amil kimi yenə enerji çıxış edir. Prezident İlham Əliyevin elektroengetikada sahəsinə yönəlik strategiyasına uyğun olaraq, Azərbaycan dövləti elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib və uzun müddətdir ki, qonşu Rusiya, Gürcüstan, İran və Türkiyəyə elektrik enerjisi ixrac edir. Artıq may ayının 1-dən "Azərenerji" ASC Gürcüstan və Türkiyədən tranzit etməklə Yunanıstana, eyni zamanda analoji olaraq Gürcüstan, Türkiyə və Bolqarıstandan tranzit keçməklə Rumıniya və Macarıstana da elektrik enerjisinin ixracına başlayıb. Qeyd edək ki, may ayı üçün Yunanıstan hərracında 7, Bolqarıstan hərracında 5 şirkət qalib olub ki, onların da hər ikisində "Azərenerji" ASC uğur əldə edib. "Azərenerji" ASC qarşıdakı aylarda Avstriya və İtaliyaya da elektrik enerjisi ixrac etməyi planlaşdırıb. Bütün bu atılan uğurlu addımlar "Azərenerji" ASC ixrac imkanlarının artırılması ilə yanaşı, enerjisitemin etibarlığının təmin edilməsi, o cümlədən artan tələbatın qarşılanması üçün Reablitasiya Proqramına uyğun olaraq itirilmiş güclərin bərpası və yeni generasiya güclərinin axtarılması istiqamətində uğurlu işlər görülür. Qeyd etmək yerinə düşər ki, bu cür böyük layihələrin həyata keçirilməsi xalqımızın rifahını daha da yaxşılaşdırmaqla yanaşı, Azərbaycanı çox önəmli beynəlxalq oyunçuya, həlledici söz sahibinə çevirir, ölkəmizin siyasi və iqtisadi maraqlarını təmin edir.

### "Azərenerji" strateji hədəflərə doğru...

Azərbaycanda enerji sisteminin müasir standartlara uyğun yenidən qurulması, ölkəmizin müxtəlif regionlarında yeni generasiya güclərinin inşa edilməsinin nəticəsidir ki, özünün elektrik enerjisinə olan tələbatını tam ödəməyə nail olmuş, həm də bölgədə elektrik enerjisi ixracatçısı mövqeyinə çıxmaq imkanları əldə etmişdir. Azərbaycanın xarici siyasətində enerji amili öz əhəmiyyətli mövqeyini qorumaqda davam edir. Azərbaycan bu siyasətlər nəticəsində, hazırda öz enerji təhlükəsizliyini təmin edə bilir, eləcə də bəzi digər dövlətlərin enerji təhlükəsizliyində də əsas rollardan birini oynayır. Azərbaycanın enerji ehtiyatları milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafının əsasını təşkil edir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında respublikanın hər yerində sürətlə davam etdirilən genişmiqyaslı quruculuq və yeniləşmə işləri bütün dünyaya nümayiş etdirir ki, inkişafın Azərbaycan modeli təsadüfi xarakter daşımır. Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir və onu qarşıda daha möhtəşəm uğurlar gözləyir.

**Mamed Bağırov**

*Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.*

# Azərbaycanın uğurlarının kölgəsində alışıb-yananlar

*Və yaxud kor olan gözlər, kar olan qulaqlar...*



25 ildir ki, "müxalifət" adı altında yol gedənlər bu gün sosial söyüş müxalifəti olmaqları ilə dövlətə, xalqa və Azərbaycanın uğurlu inkişafına qara yaxır və elə zənn edirlər ki, nə vaxtsa xalqın dəstəyini bəlkə "qazanacaqlar". Ay bədbəxt məxluq, məgər bilmirsiniz ki, 2003-cü ildən zibilliklərin "arxivinə" atılmısınız? Və hər şeyin bir-birinə qarışdırılması, bütün müsbət məqamların "hakimiyyətin məğlubiyyəti" kimi qələmə verilməsi dağıdıcı müxalifətin köhnə xəstəliyidir, amma bu dəfə lap ağ oldu. Fakta əsaslanaq. Belə ki, Prezident İlham Əliyevin "Şərq Tərəfdaşlığı" Proqramının 10 illik yubileyinə həsr olunmuş tədbirə qatılmaq üçün Brüsselə getməsinin nəticəsi, belə təqdim edildi ki, "Azərbaycanla Aİ arasında gözlənilən saziş imzalanmayıb". Hansı gözlənilən? Hansı saziş?

Azərbaycana qarşı çıxış edən AXCP sədri Əli Kərimli, "hüquq müdafiəçisi" adı ilə maskalanan Leyla və Arif Yunuslar öz antimilli və cinayətkar fəaliyyətləri ilə Azərbaycana qarşı əxlaqsızlıqlarını nümayiş etdirsələr də, elə o zibillikdə eşələnə-eşələnə qalırlar. Çünki bu əxlaqsızlar, ən yaxşı halda, Azərbaycanın ayaqqabısının üstünə dırmaşa bilmiş həşaratlar kimidirlər. Həmin həşaratların ömrü isə ayaqqabı silinənə qədərdir. Bax, bu gün Ə.Kərimli, Leyla Yunus, Xədicə İsmayıl, Arif Hacılı, və ... "siyasi mühacir" adı ilə Avropanın zibilliyində eşələnən parazitlər, yenə də ermənilərlə ortaq fikirlər səsləndirdilər və Azərbaycan diplomatiyasının Qarabağ məsələsindəki prinsipiallığını "məğlubiyyət" kimi qələmə verməyə çalışdılar. Maraqlıdır, əgər Strateji Tərəfdaş olmağa hazırlaşdığın Aİ kimi qüvvənin qarşısında milli maraqları güzəştsiz şəkildə qorumaq "məğlubiyyət"dirsə, onda bəs qələbə necə olur?! Belə parazitlərdən başqa düşüncə də gözləmək olmaz.

### Müxalifət radikallığı ilə nə əldə edib?

Anlaya bilsəydilər... Çünki dağıdıcı müxalifət deyir ki, Azərbaycanda infrastruktur bərbad vəziyyətdədir. Konstruktiv müxalifət isə, radikalları başa salır ki, ətrafa baxsınlar. Yeniləşən Azərbaycanda aparılan tikinti-quruculuq işlərini-binalar, yollar, parklar və s... radikallara sübut kimi göstərirlər. Lakin onlar bunu görmək istəmirlər. İ.Qəmbər və Ə.Kərimli iddia edirlər ki, onlar Azərbaycan müxalifətinin və tarixinin ən böyük "lider"ləridir. Konstruktiv müxalifət İ.Qəmbər və Ə.Kərimli isə vətən xaini və erməni əlaltılarıdır.

Beləliklə, dağıdıcı müxalifət Azərbaycanda nəyi görmək istəmirsə, onu ifadə etməyə çalışır. Elə buna görə də, hər şeyə qara yaxır və məkrli niyyətlərindən əl çəkmirlər. Azərbaycan xalqı isə dağıdıcı müxalifəti çoxdan arxivə atıb.

### Siyavuş Novruzov: "Hökumətin bütün sahələrdəki problemləri diqqətdə saxlaması müxalifəti əndişələndirir"

Çıxılmaz vəziyyətə düşəndə, müxalifət təmsilçiləri mitinqlərə əl atır və hökumətin atdığı addımları öz adlarına çıxarmağa çalışırlar.

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov qeyd edib ki, müxalifət nümayəndələri mitinqlərdə xalqa yanlış məlumatlar verirlər: "Prezident İlham Əliyev ötən ilin aprelində - prezident seçkiləri dövründə görüləcək işlərin proqramını açıqlayıb. Seçki platformasında ölkədə həyata keçiriləcək islahatlar əksini tapmışdı. Prezident seçkilərində iştirak edən namizədlərin, Milli Məclisin deputatlarının təklifləri sistemləşdirilərək, nəzərə alınır. Azərbaycan hökumətinin ümumi strateji proqramı var ki, burada regionların inkişafı ilə yanaşı, beynəlxalq əlaqələrin də inkişaf etdirilməsi nəzərə alınıb. Bilirsiniz ki, Prezident İlham Əliyevin sərəncamları ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Sosial Tədqiqatlar Mərkəzi yaradılıb. Bu, ona görədir ki, cəmiyyətdən gələn təkliflər təhlil edilsin və nəzərə alınsın. Dövlət başçısı regionlarda keçirilən görüşlərdə insanların problemləri ilə maraqlanır. Bu problemlərin hər biri həll edilir".

Millət vəkili vurğulayıb ki, özünü müxalifət adlandıran bəzi qüvvələr, erməni lobbisindən vəsait alanlar, xaricdə oturub bloggerlik edənlər Azərbaycanda aparılan uğurlu islahatlara kölgə salmağa cəhd edirlər: "Onlar bu islahatları öz adlarına çıxırlar. Deyirlər ki, "Biz çıxış etdik, dedik, hökumət addımlar atdı". İddia edirlər ki, guya hökumət yanvarın 19-da keçirilən mitinqdən qorxduğuna görə bu addımları atır. Bir daha qeyd edirəm ki, hökumətin atdığı addımlar ötən il 2019-cu ilin dövlət büdcəsi müzakirə olunan zaman nəzərə alınmışdı. Onlar xalqı aldadaraq, öz tərəflərinə çəkməyə çalışırlar. Deyirlər ki, mitinqə çox insan gələrsə, əməkhaqqı daha çox artar. Bunların hamısı yalandır, şayiədir. Bilirsiniz ki, Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclasları keçirilir. Hökumət bu istiqamətdə addımlar atır. Məhbusların azadlığa çıxmasını istəməyənlər isə, Milli Şurada toplaşanlar və xaricdə özünü müxalifət adlandıranlardır. Çünki həmin qüvvələr həbsdə olan şəxslərin adından istifadə edib ətraflarını genişləndirməyə çalışırlar. Yəni onlar istəmirlər ki, həmin şəxslər azadlığa buraxılsın. Onlara fikir vermək lazım deyil, yalan danışırlar. Əksinə, istəyirlər ki, həbsdə olan şəxslərin müddətləri uzadılsın".

Millət vəkili Musa Qasımlı da müxalifətin təşkil etdiyi mitinqlərə gedənlərə də səslənib: "Mitinqə gedənlər bilməlidirlər ki, onların istəkləri aksiyalarda həll olunmur. Onların problemlərini Azərbaycan dövləti və hökuməti həll edir. Mitinqlərin keçirilməsi Azərbaycanda demokratiyanın göstəricilərindən biridir".

Deputat müxalifətin hansı səbəbdən belə iddialarla çıxış etməsinin səbəbini də açıqlayıb: "Hesab edirəm ki, müxalifətçilərin belə fikirlər söyləmələri sosial baza toplamaq üçün ucuz təbliğat vasitələrindədir. Amma bizim xalqımız çox müdrikdir. Məsələləri kimin həll etdiyini, kimin ona yaxın olduğunu, kimin isə ondan öz məqsədləri üçün istifadə etdiyini çox yaxşı bilir".

**R.KAMALQIZI**

# Əli Kərimlini Henrix Mxitaryana nə bağlayır?

*Ekspertlər hər ikisinin erməni lobbi təşkilatının fəal üzvləri olduqlarını bildirirlər*





Zaman-zaman sapı özümüzdən olan baltalar milli və dövlətçilik maraqlarımıza qarşı şər və böhtan kampaniyası aparıblar. Nədi-nədi, qarşılığında xarici anti-Azərbaycan dairələrdən əyinlərinə pal-paltar, qarınlarını doyurmaq üçün yeməkiçmək alıblar. Bu gün də fəaliyyət növü dəyişməyib. Yenə də, AXCP- Müsavat partiyalarının satqın və xəyanətkar liderləri ölkəmizə qarşı hər cür pozucu siyasət aparırlar. Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və bu kimi üzdəniraq siyasət dəllalları milli maraqlarımıza zərbə vurmaq üçün pozucu aktlar törətməyə cəhdlər göstərirlər. Mayın 29-da UEFA-nın Bakıda keçirilən final yarışı öncəsi, bu simasızların müxtəlif təxribatlar törətməyə çalışmaları buna misal ola bilər. "Arsenal" futbol klubunun erməni futbolçusu Henrix Mxitaryanın yarışa gəlməkdən imtina etməsini özlərinə qəm-qüssə edən "Milli Şura" və Müsavat rəhbərliyi abırhəya etməsə idilər, erməniyə dəstək aksiyası keçirərdilər. Keçirdilər də, amma Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə. Rüsvayçılıqla nəticələnən aksiyada təxribatlar törədilməsinə cəhdlər göstərildi, ancaq hüquq-mühafizə orqanları səbr və təmkinlə təxribatların qarşısını almaqla dağıdıcı müxalif ünsürləri ümidsizliyə düçar etdilər.

### "Nə mənfi komponent varsa, Əli Kərimli ona sahibdir"

Bütün bunlar, bir daha təsdiq edir ki, AXCP sədri Ə.Kərimli erməni lobbisinin sifarişlərini yerinə yetirir və onlardan maliyyə yardımları alır. Millət vəkili Elşən Musayev "Səs" qəzetinə açıqlamasında bildirdi ki, tarix boyu Ə.Kərimli kimi ambisioz, qeyri-səmimi, dələduz siyasətçi yetişməyib və doğulmayıb: "Nə mənfi komponent varsa, bu adam ona sahibdir. Meydanda hər zaman dostlarını tək qoyan da, arada nifaq salan da, insanları müxalifətçilikdən küsdürən də, iyrəndirən də, liderini və tərəfdaşlarını öz maraqları naminə satan da Ə.Kərimli olub. Hamının bu və ya digər şəkildə mənfi və müsbət tərəfləri ola bilər. Amma Kərimlinin bütün tərəfləri mənfidir. Təbii, son mitinqdə də, bu adam sırf öz maraqlarını güdürdü, özünü qaldırmağa və hamını aşağılamağa çalışırdı. Bacardığı qədər də bunu elədi. Odur ki, ətrafındakılar bu son nümunədən də dərs götürsünlər və bu buqələmunun nə olması, necə olması ilə bağlı yenidən düşünsünlər".

UEFA final yarışı ərəfəsi Ə.Kərimli və onun ətrafında olanlar Azərbaycanın imicini ləkələmək üçün xarici maraqlı dairələrə "donos"lar ünvanlayırdılar. "Amnistey İnterneyşin" təşkilatını mayın 25-də Azərbaycanda insan hüquq və azadlıqlarının pozulduğunu iddia edən, cəfəng hesab yayması Ə.Kərimli, C.Həsənli, A.Hacılı kimilərin "donos"larının və xarici anti-Azərbaycan dairələrinin ideyalarının məhsuludur. Əminliklə demək olar ki, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı ilə göstərirlər. Göstərişə əsasən, onlar gah mitinqlər, küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxış edirlər. Baxmayaraq ki, bu ünsürlərin təşkil etdikləri mitinqlərə belə gələn olmur. Ancaq "Milli Şura" və Müsavat liderləri mitinq xəstəliyindən əl çəkmir və demək olaraq ki, hər həftə sonu aksiya keçirmək arzusunda olduqlarını bəyan edirlər. Söz yox ki, mitinqlər zamanı qarşıdurma yaranarsa, dil pəhləvanları hər kəsdən öndə olmaqla, qaçmağa üstünlük verəcəklər. Bunu misal olaraq, 2003-cü il 15-16 oktyabr iğtişaşlarına cəhd zamanı İsa Qəmbərin 2005-ci ildə Qələbə meydanında polislə qarşıdurma qazmanı Ə.Kərimlinin və mühafizəçilərinin köməyini gözləmədən aradan çıxmalarını göstərmək olar. 1990-cı il 20 Yanvar faciəsi zamanı da insanları meydanlara səsləyən İ. Qəmbər, Ə.Kərimli, N.Pənahlı, İ.Həmidov, A.Hacılı sövet qoşunlarının şəhərə soxulduqlarını görüncə, dabanlarına tüpürüb qaçmağa üstünlük verdilər. Bu baxımdan da, onların heç biri cüzi belə zərər görmədilər. Halbuki insanları qırğına, məhz onlar vermişdilər. Sonradan bəlli oldu ki, 20 yanvar gecəsi İ. Qəmbər Yusif Səmədoğlunun evində istirahət edirmiş. Ə.Kərimli isə, doğulduğu Saatlı rayonunun Azadkənd kəndinədə gizlənirmiş.

### "Milli Şura" buraxılacaq

Mövcud faktlara əsaslanaraq, demək olar ki, müxalif dağıdıcı ünsürlər xarici maddi və mənəvi dəstəyə malik olmalarına baxmayaraq, "Milli Şura" arxivlikdir. Çünki bu qurum daxilində ziddiyyətlər özünün kulminasiya nöqtəsinə yüksəlməkdədir. Bu baxımdan, siyasi ekspetlərin də, qeyd etdikləri kimi, "Milli Şura" yaxın vaxtlarda fəaliyyətini dayandıracaq. Baxmayaraq ki, Ə.Kərimli süni vasitələrlə qurumun dağılmasının qarşısını almağa çalışır. Ancaq hazırkı şəraitdə gözlənilən parçalanmanın qarşısını almaq mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa və konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bir qədər əvvəl, qeyd etdiyimiz kimi, Eldəniz Quliyev, Oktay Güaliyev və digərləri "Milli Şura"dan istefa verərək, yeni qurum yaratmağı planlaşdırırlar. Bu isə, o deməkdir ki, "Milli Şura"da yaranan çatlar getdikcə dərinləşir. Bunun sonu isə, parçalanmadır. Düzdür, Ə.Kərimli "Milli Şura"nın tör-töküntülərini AXCP-yə cəlb etməyə çalışır. Bunun üçün qurumun istefa startında olanlarla fərdi söhbətlər aparır. Ancaq AXCP bir işə yaramadığı üçün, "şura"çılar Ə.Kərimlinin təklifini dəyərləndirmək fikirində deyillər.

**İ.ƏLİYEV**

***Edvards Palmerin fikrincə, Pakt və digər beynəlxalq sazişlərdə təsbit edilmiş hüquq və azadlıqların siyahısı tam mükəmməl deyil. Hər bir dövlət öz vətəndaşlarına ictimai quruluşun xüsusiyyətləri, iqtisadi inkişafın səviyyəsi, milli struktur və tarixi ənənələrlə müəyyən olunan xüsusi hüquqlar da təqdim edir.***

# Konstitusiya qanunvericiliyi və sağlamlığın qorunması hüququ

Sağlamlığın qorunması hüququ onların reallaşması üçün bir sıra hüquq və təminatları əhatə edir və ona görə də, konstitusiyalarda müxtəlif cür ifadə olunur. Əksər konstitusiyalarda, ələlxüsus da, İkinci Dünya Müharibəsinə qədər qəbul olunanlarda, o, yoxdur. Xarici konstitusiyalarda sağlamlığın qorunması hüququnun təsbit edilməsini araşdırarkən, konstitusionalizmin fəlsəfi-dünyagörüş əsaslarının xüsusiyyətləri ilə şərtlənmiş tarixi ənənələri nəzərə almaq lazımdır. Əksər ölkələrdə (buna parlaq misal olaraq, ABŞ-ı göstərmək olar) konstitusiyaya yanaşma pozitivizm fəlsəfəsinə əsaslanmışdır ki, o da formal-hüquqi yanaşmanı nəzərdə tutur.

A.Mustafayeva yazır: "Yuxarıda apardığımız təhlildən belə bir nəticəyə gəlmək olar ki, göstərilən ölkələrin dövlət orqanlarının səlahiyyətinə aşağıdakı məsələlər aiddir:

- səhiyyə sahəsində bazarın stimullaşması üzrə tədbirlərin də daxil olduğu tibbi xidmətlərin göstərilməsində münasibətlərin tənzimlənməsi;
- göstərilən xidmətlərin keyfiyyətinə nəzarət;
- tibbi heyətin təhsili;
- dərman vasitələrinin dövriyyəsi;
- səhiyyə sahəsində qanunvericiliyin pozulması hallarında müdafiə;
- əhaliyə tibbi xidmətlərin göstərilməsinin maliyyələşdirilməsi ilə məşğul olan sığorta və digər maliyyə-kredit təşkilatlarısisteminin inkişafı.

Azərbaycanda bir sıra tibb müəssisələri şəxsi mülkiyyətdədir. Tibbi xidmətlər ödənişlidir, lakin onların maliyyələşdirilməsi ixtisaslaşdırılmış fondlar, sığorta təsisatları, pasiyent tərəfindən birbaşa ödəniş və s. də daxil olmaqla, müxtəlif mənbələr hesabına baş verir."

Bəzi Avropa ölkələrinin konstitusiyaları sağlamlığın qorunması hüququnu bu və ya digər dərəcədə tənzimləyir. Yunanıstan Konstitusiyası bir sıra təminatlar nəzərdə tutmuşdur. Buraya dövlətin sağalmaz fiziki və ruhi çalışmazlıqlardan əziyyət çəkən xəstələrə xüsusi qayğı göstərməsi, vətəndaşların, ələlxüsus da, gənclərin, qocaların və əlillərin sağlamlığının qayğısına qalması ilə bağlı öhdəliklər daxildir.

Belçika Konstitusiyası sosial sığorta, sağlamlığın qorunması, sosial tibbi yardım hüququ da daxil olmaqla, insan ləyaqətinə müvafiq gələn yaşamaq hüququnu təsbit edir. İspaniya Konstitusiyasının 1-ci maddəsinə əsasən, İspaniya hüquqi, demokratik və sosial dövlətdir. 15-ci maddə yaşamaq hüququnu, fiziki və mənəvi toxunulmazlığı nəzərdə tutur. Qeyd edilir ki, sosial və iqtisadi tərəqqi üçün əlverişli şərait yaratmaq hökumət orqanlarının borcudur. 43-cü maddəyə əsasən, sağlamlığın qorunması hüququ dəstəklənir. İspaniya Konstitusiyası profilaktik tədbirlər aparılması vasitəsi ilə ictimai səhiyyənin təşkilini və rəhbərliyini, eləcə də, zəruri xidmət və yardımların göstərilməsini; sanitar maarifçilik, bədən tərbiyəsi və idmanın inkişafina kömək göstərilməsini hökumət orqanlarının idarəçiliyinə şamil edir. Hökumət orqanları fiziki və psixi cəhətdən zəifləmiş şəxslərin xəstəliklərinin profilaktikasına və müalicəsinə, onların ictimai həyata daxil olmalarına yönəldilmiş siyasət yeridir, bu şəxslərə sağlamlığın qorunması hüququnun gerçəkləşdirilməsində məxsusi yardım və xüsusi dəstək verir.

Niderland Krallığının Konstitusiyası dövlət orqanlarının üzərinə əhalinin sağlamlığının müdafiəsi üzrə tədbirlər görmək, əhalinin yetərli həyat səviyyəsi ilə təmin olunmasının qayğısına qalmaq, cəmiyyətin sosial və mədəni inkişafına kömək etmək öhdəliyi qoyur. Portuqaliya Konstitusiyası sağlamlığın qorunması hüququnu təsbit edir. Bu hüquq aşağıdakılar vasitəsilə reallaşır:

- əsasən, pulsuz olan universal ümummilli səhiyyə xidməti;
- vətəndaşların müxtəlif kateqoriyalarının müdafiəsinə yönələn iqtisadı, sosial və mədəni amillərin yaradılması.

Dövlət, ayrı-seçkilik olmadan, tibbi xidmətlər göstərməyə; səhiyyə sisteminin inkişafına, səhiyyə və istehsalat sahəsində sahibkarlıq fəaliyyətinə nəzarətə; əczaçılıq məmulatlarının, müalicə və digər diaqnostik vasitələrin ticarətinə və istifadəsinə təminat verir.

İtaliya Konstitusiyasının 32-ci maddəsində bununla bağlı aşağıdakılar qeyd edilir:

"Respublika fərdin əsas hüququ və cəmiyyətin marağı olaraq, sağlamlığı qoruyur və yoxsulların pulsuz müalicəsinə təminat verir."

Bolqarıstan Konstitusiyası 52-ci maddədə bu hüququ daha ətraflı olaraq tənzimləyir:

**1.** Vətəndaşların əlçatar tibbi xidmətə təminat verən sağlamlıqlarını sığortalamaq, eləcə də, qanunla müəyyən olunmuş şəkildə və qaydada tibbi xidmətlərdən pulsuz istifadə etmək hüquqları var.

**2.** Vətəndaşların sağlamlıqlarının qorunması qanunla müəyyən olunmuş şəkildə və qaydada dövlət büdcəsi, iş verənlər, şəxsi və kollektiv sığorta üzvlük haqları və digər mənbələr hesabına maliyyələşir.

**3.** Dövlət vətəndaşların sağlamlığını qoruyur, habelə, idman və turizmin inkişafını dəstəkləyir.

**4.** Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, heç kim məcburi müalicəyə və sanitar tədbirlərə məruz qala bilməz.

**5.** Dövlət bütün səhiyyə müəssisələrinə, eləcə də, dərman vasitələrinin, biopreparatlarının və tibbi texnikanın istehsalına və onlarla ticarətə nəzarəti həyata keçirir.

A.Mustafayeva yazır: "Yuxarıda adıları çəkilən ölkələrin konstitusiyalarının mətnindən də göründüyü kimi, səhiyyənin iki sistemi mövcuddur: dövlət və özəl. Dövlət, səhiyyə sistemi vətəndaşların sağlamlığının qorunmasında əsas formadır. Dövlət xüsusi olaraq, yaradılmış orqanlar vasitəsilə ixtisaslaşmış tibb müəssisələri şəbəkəsini inkişaf etdirir; həmin müəssisələri tibbi texnika, təsərrüfat ləvazimatları ilə təmin edir; mütəxəssislərin təhsilini və ixtisasartırmasını həyata keçirir və s.

Bundan başqa, dövlət orqanları tibbi yardım göstərilməsi sahəsində münasibətləri tənzimləyən normativ aktlar qəbul edirlər; həm dövlət, həm də özəl klinikalarda göstərilən tibbi xidmətlərin keyfiyyətinə nəzarəti həyata keçirirlər; digər nəzarət-inzibati funksiyaları, həmçinin, sağlamlığın qorunması hüququ pozulduğu hallarında onun müdafiəsini təmin edirlər. Lakin bu halda da, pasiyentlərin özəl klinikalarda mütəxəssislərə ödənişi, həmçinin, müxtəlif mənbələrdən gerçəkləşən alternativ müraciət etmək imkanları da var. Yaxşı imkanlara malik bu klinikalarda pasiyentlər üçün daha rahat şərait yaradılır, dövlət klinikalarında göstərilən əsas məcburi xidmətlər siyahısına (məsələn, stomatologiya, kosmetologiya və s.) daxil olmayan tibbi xidmətlər həyata keçirilir, yüksək ixtisaslı mütəxəssislər işləyir. Özəl klinikaların digər üstünlükləri də var."

A.İ.Vyalkov və A.M.Taranovun qeyd etdikləri kimi, dünya təcrübəsi göstərir ki, hətta dövlət tibbi xidməti yaxşı səviyyədə olan ölkələrdə belə, bu səviyyə hər halda, liberal və sığorta təbabəti şəraitinə nisbətən xeyli aşağıdır. Belə ki, liberal təbabət göstərilən xidmətlərə görə birbaşa və bilavasitə, ödəniş prinsipinə əsaslanır, bu isə çox vaxt yalnız yüksək gəlirli şəxslər üçün əlçatardır. Pasiyent daha yüksək dərəcəli mütəxəssis seçmək hüququna malik olduğundan, bu sistem tibbi heyəti öz peşəkarlıq səviyyəsini yüksəltməyə həvəsləndirir.

Yaponiyanın timsalında inkişaf etmiş ölkələrdə sağlamlığın qorunması hüququnun təmin olunmasını qiyabi təsəvvür etmək olar. Yaponiya Konstitusiyasının 44-cü maddəsinə əsasən, bu ölkənin vətəndaşlarının pulsuz tibbi yardım almaq hüququ var. Bu hüquq pulsuz tibbi yardımın təqdim edilməsi, xəstəxana, sanatoriya və digər tibb müəssisələrinin genişlənməkdə olan şəbəkəsi ilə təmin edilir. Buradan, belə bir nəticəyə gəlmək olar ki, həmin hüququn təmin edilməsi üzrə bütün ağırlıq - qanunvericiliklə tənzimləmə, icra təminatı, məhkəmə müdafiəsi - dövlət orqanlarının üzərinə düşür.

Bəs, MDB ölkələrində sağlamlığın qorunması hüququnun təsbit olunması üzrə hansı normativ-hüquqi sənədlər vardır?

Rusiya Federasiyasının Konstitusiyası 7-ci maddədə sosial dövlətin yaradılmasını bəyan edir. 41-ci maddə hər bir kəsin sağlamlığının qorunması, habelə, dövlət və bələdiyyə, səhiyyə müəssisələrində pulsuz tibbi yardım almaq hüququnu müəyyənləşdirir. Rusiya Federasiyasının dövlət federal hakimiyyət orqanlarının səhiyyə sahəsində səlahiyyətlərini təyin edir, fiziki mədəniyyətin inkişafı üçün əlverişli şərail yaradır. Rusiya Federasiyası Konstitusiyasına əsasən, sağlamlığın qorunması haqqında RF qanunvericiliyinin əsasları müəyyən edir ki, Rusiya vətəndaşları xəstələnərkən, əmək qabiliyyətlərini itirərkən və digər hallarda dövlət, habelə, bələdiyyə səhiyyə sistemlərində pulsuz tibbi-sosial yardım almaq hüququna malikdirlər. Vətəndaşların ayrı-ayrı kateqoriyalarının sosial adaptasiyasına kömək edən xüsusi tibbi vasitələrlə güzəştli təminat hüququ da mövcuddur.

Belarus Respublikasının Konstitusiyası dövlət səhiyyə müəssisələrində, pulsuz müalicə də daxil olmaqla, respublika vətəndaşlarının sağlamlığının qorunması hüququna təminat verir. Dövlət bütün vətəndaşlar üçün əlçatar olan xidmət şəraiti yaradır, fiziki mədəniyyət və idmanın inkişafını təmin edir.

Gürcüstan Konstitusiyası, ölkənin hər bir vətəndaşını mümkün tibbi yardım vasitəsi kimi sağlamlığın sığortasından istifadə etmək hüququnu təsbit edir. Qanunla müəyyən olunmuş qaydada konkret şəraitlərdə pulsuz tibbi yardım təmin edilir. Dövlət bütün səhiyyə təşkilatlarına, dərman vasitələrinin istehsalına və onların satışına nəzarət edir. Qazaxıstan Respublikasının Konstitusiyası, vətəndaşların təminatlı həcmdə pulsuz tibbi yardım almaq, habelə, dövlət və özəl müalicə müəssisələrində pullu tibbi yardımdan istifadə etmək hüququnu nəzərdə tutur. Moldova Respublikasının Konstitusiyası, dövlət tibbi təminatının pulsuz minimal səviyyəsinə, təminat verir.

Beləliklə, MDB ölkələri Qərbi Avropa dövlətlərinin qabaqcıl təcrübəsini əxz edirlər. Bu ölkələrdə dövlət tənzimlənməsi, bütün vətəndaşlara məcburi tibbi təminatın verilməsi, dövlət tərəfindən bu hüququn gerçəkləşməsinə nəzarət, vətəndaşların müdafiəsi, həmçinin, özəl tibb müəssisələrində həm əsas, həm də əlavə tibbi yardım almaq imkanının yaradılması yolu ilə sağlamlığın qorunması hüququnun ikili prinsipinin təmin edilməsi vəhdət təşkil edir.

***VAHİD ÖMƏROV,***
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# ELAN

Hacıyev Sərdar Qənbər oğluna məxsus Bakı ş. Xəzər rayonu Mərdəkan qəsəbəsi 2212a saylı bağ sahəsinin seriya RX 0574123 saylı çıxarışı və AA 072166 saylı "Torpaq sahəsinin planı və ölçüsü" sənədi itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nun Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin III kurs tələbəsi Qədimov Murad Asəf oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsinin 2633-cü qrup tələbəsi Abdullayeva Telli Ruslan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# BAŞSAĞLIĞI

YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

faciəli vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

Zərdab rayon icra hakimiyyətinin başçısı Lütvəli Babayev, YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova və aparatın kollektivi YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

faciəli vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**



# YAP Neftçala rayon təşkilatı gənclər birliyinin VI konfransı keçirilib

***YAP Neftçala rayon təşkilatı gənclər birliyinin VI hesabat-seçki konfransı keçirilib. Konfransda Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının sədri Anar Cəfərov, ryon icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, YAP Neftçala rayon təşkilatının qadınlar şurasının sədri Gültəkin Sadıqova, rayon təşkilatının idarə heyətinin üzvləri və 150 nəfər gənc iştirak edib.***





Konfransda rayon təşkilatının gənclər birliyinin sədri Ülvi Fərzəliyevin hesabat dövründə gördüyü işlər barədə məruzəsi dinlənilib.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Yeni tərkibdə YAP Neftçala rayon təşkilatı gənclər birliyinin 15 nəfərdən ibarət şura və 9 nəfərdən ibarət idarə heyəti seçilib. Gizli səsvermə yolu ilə Ülvi Fərzəliyev YAP Neftçala rayon təşkilatı gənclər birliyinin sədri, Sona Haxıyeva və Ataş Əsədov sədr müavinləri, YAP Gənclər Birliyinin V hesabat yığıncağına 2 nəfər nümayəndə seçilib.

Sonda partiya sıralarına yeni daxil olmuş gənclərə partiya biletləri təqdim olunub.

***R.HÜSEYNOVA***

# "Nar" eşitmə məhdudiyyətli insanların peşəyə yiyələnməsinə dəstək olur




"Nar"-ın dəstəyi ilə eşitmə məhdudiyyətli insanların müxtəlif ixtisaslara yiyələnməsi və onların işlə təmin olunması məqsədilə keçirilən "Təlim məktəbi" layihəsi davam edir. Artıq layihənin 1-ci mərhələsi başa çatıb. 15 nəfərdən ibarət qrup şirniyyat ustası peşəsinin incəliklərini öyrəniblər. Qeyd edək ki, "Nar"-ın "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşdırıdğı layihə 3 mərhələdən ibarətdir. Layihə çərçivəsində üç qrupdan ibarət olan vətəndaşlar üç aylıq peşə kurslarında təlim keçəcəklər. Qarşıdakı 2 aylıq peşə kurslarında isə iştirakçılar aşpaz və motorçu ixtisaslarına yiyələnəcəklər. "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyətli insanların təhsil almasından sonra işlə təmin olunmasına da yardım edəcək. Layihə təcrübəli mütəxəssislər tərəfindən aparılacaq. Qeyd edək ki, "Nar" tərəfindən təşkil edilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların yeni bacarıqlar əldə etməklə cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə keçirilir. Layihə eyni zamanda eşitmə məhdudiyyətli insanların həm psixoloji, həm də qanunvericilik sahəsində qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlməyə kömək edəcək. Peşə təlimi ilkin olaraq paytaxt Bakıda start götürüb. Gələcəkdə isə bölgələrdə də "Təlim məktəbi" layihəsinin davam etdirilməsi planlaşdırılır.

Qeyd edək ki, "Nar" 4 ilə yaxındır ki, eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşəyə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə verir. Fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiya edilməsi "Nar"-ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**